# QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 171 (6371) 22 sentyabr 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Ərdoğanın Rusiya səfərində nələr müzakirə olunacaq?



## Təhsilə qoyulan investisiya gələcəyə yatırılan sərmayədir



Bax 4



## Gürcüstanın Baş naziri: Prezident İlham Əliyev ölkəsinin və xalqının firavanlığını düşünən müdrik Liderdir

Azərbaycanlıların çox müdrik Lideri var. Mənim də Prezident İlham Əliyevə dərin hörmətim...

Bax 4

## Milli Məclisdə postmüharibə dövründə icra və qanunvericilik hakimiyyətləri arasında əməkdaşlığın prioritetləri müzakirə olunub

Milli Məclisdə "Vətən müharibəsinin birinci ildönümü: postmüharibə dövründə icra və qanunvericilik hakimiyyətləri arasında əməkdaşlığın prioritetləri" mövzusunda videokonfrans keçirilib. Konfransda...



Bax 5



## "Ölkəmizin böyük nailiyyətlər qazanmasında Yeni Azərbaycan Partiyasının da xüsusi rolu var"

Sentyabrın 21-də Yeni Azərbaycan Partiyasının Qaradağ, Yasamal, Səbail və Nərimanov rayon...

Bax 6

## Lənkəranda Ümumrespublika "Xəmsə" Festivalının VII mərhələsi keçirilib



Bax 7

Bax 8

## Məktəblilərin məktəb həyəcanı



## Linn Treysi ABŞ-dakı separatçıların halına yansın!

ABŞ-ın Ermənistandakı səfiri Linn Treysinin Azərbaycanın qələbəsi ilə başa çatan 44 günlük müharibənin...



Bax 11

## DİQQƏT: Valideynlərdən Covid-19 pasportu tələb olunacaq?

"Pandemiya dövründə tədrisin təşkili qaydalarında qeyd olunur ki, yaşı 18-dən yuxarı olan şəxslər əgər vaksin olunmayıblarsa, tədris...



Bax 10



## Fərid Şəfiyev: "Azərbaycan Oxçuçayda ekoloji fəlakətə səbəb olan şirkəti beynəlxalq məhkəməyə verəcək"

Bax 7




## İran maşınları Qarabağa nə daşıyır?

## Azərbaycan polisinin narkotik müharibəsi: Qələbə yaxındadır!




Bax 15

## Arif Hacılı, Qənimət Zahid və Ramin Hacılı Niderland hökumətinin hədəfində!



Bax 14

## "Messi solur, artıq oyuna təsir etmir"



Bax 16

# Ölkəmizdə həyata keçirilən hərtərəfli inkişaf konsepsiyasında təhsil sahəsi prioritet yer tutur

*Prezident İlham Əliyev Sabunçu rayonunda 71 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olub*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də paytaxtın Sabunçu rayonunda 71 saylı tam orta məktəbdə aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.***

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov 71 saylı orta məktəbdə aparılan əsaslı təmir işləri barədə Prezident İlham Əliyevə məlumat verdi.

Bildirildi ki, şagird sıxlığı nəzərə alınaraq, təhsil ocağı üçün 864 yerlik, 30 sinif otağından ibarət əlavə korpus da inşa olunub.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən hərtərəfli inkişaf konsepsiyasında təhsil sahəsi də prioritet yer tutur. Respublikanın hər yerində, o cümlədən paytaxtda məktəblərin əsaslı təmiri, yenidən qurulması, yeni təhsil ocaqlarının və tədris korpuslarının inşası istiqamətində ardıcıl işlər görülür. Bütün bunlar, ilk növbədə, şagirdlərin ən yüksək səviyyədə təhsil alması, elmin sirlərinə daha dərindən yiyələnməsi üçün hərtərəfli imkanlar açır. Bu, eyni zamanda, Azərbaycan dövlətinin gənc nəslin savadlı, bilikli, intellektual səviyyədə yetişməsinə göstərdiyi diqqətin bariz nümunəsidir.

Qeyd edək ki, Sabunçu rayonundakı 71 saylı orta məktəbin binası 1980-ci ildə inşa olunub. 1176 şagird yerlik binada sinif otaqları ilə yanaşı, fənn laboratoriyaları, akt və idman zalları da müasir səviyyədə şagirdlərin ixtiyarına veriləcək. Sinif otaqları və laboratoriyalar zəruri tədris avadanlığı ilə təchiz edilib.

















# Prezident İlham Əliyev "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaimi qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaimi qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı. Söhbət zamanı investisiya qoyuluşu, logistika sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi. Eyni zamanda bildirildi ki, Azərbaycanın təşəbbüskarı olduğu yeni nəqliyyat dəhlizlərinin açılması və ölkəmizdə azad ticarət zonasının fəaliyyətə başlaması həm ölkələrimiz arasında, həm də regionda iqtisadi əlaqələrin genişlənməsində mühüm rol oynayacaq.



# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı Avropa Liseyinin yeni binasının açılışında iştirak ediblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 21-də paytaxtdakı Ağ Şəhərdə Bakı Avropa Liseyi üçün inşa edilən 1560 şagird yerlik yeni binanın açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, təhsil naziri Emin Əmrullayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Bakı Avropa Liseyinin yeni binasında yaradılan şərait barədə məlumat verdi.

İnşasına ötən il başlanılan bu tədris müəssisəsində 70 sinif otağından başqa fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi hazırlıq kabinetləri, kino məktəb, rəsm, diplomatiya, kiçik elmlər akademiyası otaqları, art-studio, idman və akt zalları, yeməkxana müəllimlərin və şagirdlərin ixtiyarına veriləcək. Bir sözlə, burada yaradılan şərait istedadlı şagirdlərin intellektual və yaradıcı potensialının üzə çıxarılması və inkişafı, onların yüksək mənəvi və mədəni dəyərlərə əsaslanaraq formalaşdırılması üçün geniş imkanlar yaradır.

Qeyd edək ki, istedadlı uşaqlar üçün yaradılmış Bakı Avropa Liseyi Təhsil Nazirliyinin tabeliyində olan dövlət məktəbidir. Hər il məzunlarının 100 faizi ali məktəblərə yüksək balla daxil olan liseyin yetirmələri dünyanın bir çox nüfuzlu universitetlərində təhsillərini davam etdirirlər.

Liseyin özünəməxsus təhsil modeli var. Mühəndis, robot, iclas, incəsənət, elm və kids zonalarına bölünən steam otaqda şagirdlər üçün müasir dövrün tələblərinə uyğun hər cür şərait yaradılıb.

Məlumdur ki, müasir dünyada hər bir ölkənin gələcəyi onun təhsilinin səviyyəsi ilə ölçülür. Təhsildəki nailiyyətlər inkişaf konsepsiyasının mühüm tərkib hissəsini təşkil edir. Bu baxımdan Azərbaycanda dövlət səviyyəsində çox əhəmiyyətli layihələr ardıcıl şəkildə həyata keçirilir. Görülən bütün bu işlər yüksək intellektə malik insan kapitalının yetişməsində, beynəlxalq standartlara uyğun müasir təhsil sisteminin qurulmasında mühüm rol oynayır, peşəkar, bilik və bacarıqlara yiyələnən, daim rəqabətə davamlı insan resurslarının təmin edilməsinə böyük töhfə verir. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı reallaşdırılan kompleks tədbirlər nəticəsində bu sahədə böyük uğurlar əldə olunub, müasir innovativ tədris üsulları uğurla tətbiq edilib.



























# Təhsilə qoyulan investisiya gələcəyə yatırılan sərmayədir





## Sabunçu rayonundakı 307 saylı tam orta məktəb əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də paytaxtın Sabunçu rayonundakı 307 saylı tam orta məktəbdə aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.***

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, 2006-cı ildə inşa edilən 1176 şagird yerlik 307 saylı tam orta məktəbin binası əsaslı təmir olunub, 15 sinif otağından ibarət əlavə korpus tikilib. Yeni korpus 432 şagird yerlikdir. Təhsil müəssisəsində kimya, fizika, biologiya laboratoriyaları, hərbi kabinet, kitabxana var. Şagirdlər laboratoriyalarda əyani təlimlər keçərək biliklərini artıra biləcəklər. Təhsil ocağında, eyni zamanda, hərbi hazırlıq, qızlar və oğlanlar üçün əmək otaqları, akt və idman zalları da yaradılıb.

Qeyd edək ki, Sabunçu rayonundakı həm 71 saylı, həm də 307 saylı tam orta məktəblərdə aparılan əsaslı təmir və tikinti işləri dövlətimizin başçısının "Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında" ötən il və bu il imzaladığı müvafiq sərəncamlara uyğun olaraq həyata keçirilib.

Hər bir dövlətin tərəqqisi və gələcəyi onun təhsil səviyyəsi ilə birbaşa bağlıdır. Bu sahəyə qoyulan investisiya gələcəyə yatırılan sərmayədir. Azərbaycan dövləti bu baxımdan hazırda dünyada lider ölkələrdəndir. Heç bir ölkədə qısa müddət ərzində bu sayda məktəb tikilməyib və yenidən qurulmayıb. Çox mühüm amillərdən biri də odur ki, yeni yaradılan və əsaslı təmir olunan təhsil müessisələri ən müasir tədris avadanlığı ilə təchiz edilir.














# Gürcüstanın Baş naziri: Prezident İlham Əliyev ölkəsinin və xalqının firavanlığını düşünən müdrik Liderdir

**Azərbaycanlıların çox müdrik Lideri var. Mənim də Prezident İlham Əliyevə dərin hörmətim var. Prezident İlham Əliyev ölkəsinin inkişafı və xalqının firavanlığını düşünən müdrik Liderdir.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstanın Baş naziri İrakli Qaribaşvili söyləyib.

Baş nazir Gürcüstanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında əldə olunan humanitar razılaşmadan da məmnunluğunu bildirib. O deyib: "Bu təşəbbüs mənə məxsus olub. Çox şadam ki, son 30 ildə Gürcüstan Azərbaycan ilə Ermənistan arasında uğurlu vasitəçilik etdi və ilk presedent yaradıldı. Prosesə cəlb olunan amerikalı dostlarımıza minnətdaram. Biz bunu bir yerdə həyata keçirdik".

Qeyd edək ki, bu il iyunun 12-də Ermənistanın Ağdam rayonu üzrə tank və piyada əleyhinə 97 min minanı özündə əks etdirən xəritələri Azərbaycan tərəfinə təqdim etməsi müqabilində, saxlanılan 15 nəfər erməni Azərbaycan-Gürcüstan sərhədində Gürcüstan nümayəndələrinin iştirakı ilə Ermənistana təhvil verilib. Bu proses Gürcüstan Baş nazirinin təşəbbüsü ilə həyata keçirilib.



# Milli Məclisdə postmüharibə dövründə icra və qanunvericilik hakimiyyətləri arasında əməkdaşlığın prioritetləri müzakirə olunub

**Milli Məclisdə "Vətən müharibəsinin birinci ildönümü: postmüharibə dövründə icra və qanunvericilik hakimiyyətləri arasında əməkdaşlığın prioritetləri" mövzusunda videokonfrans keçirilib. Konfransda Milli Məclisin sədri Sahibə Qafarova, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev, parlamentin rəhbərliyi, komitə və komissiya sədrləri və müavinləri, həmçinin Prezident Administrasiyasının və Milli Məclis Aparatının əməkdaşları iştirak ediblər.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, tədbiri giriş sözü ilə açan Milli Məclisin sədri Sahibə Qafarova VI çağırış Milli Məclisin fəaliyyətində bu cür konfransların keçirilməsinin yaxşı bir ənənəyə çevrildiyini bildirərək, bugünkü tədbirdə müzakirə edilən mövzunun da kifayət qədər aktual olduğunu deyib. Sahibə Qafarova bu günlərdə Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinin ən şanlı səhifəsini təşkil edən Vətən müharibəsinin birinci ildönümünün tamam olduğunu xatırladaraq, illər keçsə də Azərbaycan xalqının həmin tarixi günləri heç vaxt unutmayacağını, hər zaman böyük fəxarət hissi ilə xatırlayacağını söyləyib. O, ötən il sentyabrın 27-də başlayan Vətən müharibəsinin Azərbaycanın tarixi Qələbəsi ilə başa çatdığını, noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli Bəyanatla münaqişəyə son qoyulduğunu, bu sənədin, həmçinin Ermənistanın kapitulyasiya aktı olduğunu, Azərbaycanın öz torpaqlarını işğaldan azad edərək, həm tarixi ədaləti, həm də ərazi bütövlüyünü bərpa etdiyini diqqətə çatdırıb. Bu şanlı Qələbənin Azərbaycanın dövlətçilik tarixində yeni mərhələnin, yeni dövrün başlanğıcı olduğunu bildirən parlament sədri vurğulayıb ki, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrüdür. Bu mərhələdə Azərbaycan dövlətinin qarşısında duran vəzifələr, hədəflər cari il yanvarın 6-da Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə çox aydın şəkildə ifadə edilib. Sahibə Qafarova bildirib ki, bu strateji hədəflər, ilk növbədə, regionda davamlı sülh və təhlükəsizliyin təmin olunması, işğaldan azad edilən tarixi torpaqlarımızda genişmiqyaslı bərpa və quruculuq işlərinin aparılması, həmin ərazilərin yenidən dirçəldilməsi, qaçqın və məcburi köçkünlərin öz yurdlarına qayıtmasının təmin edilməsi ilə bağlıdır. Prezident İlham Əliyevin Şuşa şəhərinə, işğaldan azad olunmuş digər şəhər və rayonlarımıza səfərləri, həmin səfərlər çərçivəsində çox mühüm tədbirlərdə iştirakı, açılış və təməlqoyma mərasimlərinin keçirilməsi bir daha Azərbaycan dövlətinin gücünü və qüdrətini hər kəsə nümayiş etdirir. Bu tədbirlər həm böyük rəmzi məna daşıyır, həm də həyata keçirilən layihələr milli iqtisadiyyatımızın inkişafına təkan verir.

Ermənistanın 30 il ərzində işğal altında saxladığı şəhər və rayonlarımızı, binaları, tarixi abidələri, məscidləri dağıtdığını, talan etdiyini xatırladan Sahibə Qafarova deyib ki, hazırda qarşımızda duran mühüm prioritetlərdən biri Ermənistanın törətdiyi bu vəhşiliklərı və digər təxribatları beynəlxalq ictimaiyyətə dolğun çatdırmaqdır.

Videokonfransda müzakirə olunan mövzunun aktuallığına toxunan parlamentin sədri xatırladıb ki, VI çağırış Milli Məclis fəaliyyətə başlayandan sonra bu sahədə bir sıra mühüm addımlar atılıb. Postmüharibə dövründə də bu istiqamətdə uğurlu əməkdaşlıq davam etdirilir. Milli Məclis sədrinin sözlərinə görə, hakimiyyətin müxtəlif qolları arasında səmərəli əməkdaşlıq ölkəmizin strateji inkişaf xəttinin uğurla həyata keçməsini təmin edir. S.Qafarova Milli Məclisin deputatlarının seçicilərlə işinin düzgün əsasda qurulması, seçici müraciətlərinin dövlət qurumları tərəfindən cavablandırılması, onların qaldırdıqları məsələlərin həlli ilə bağlı müvafiq tədbirlərin görülməsi, şəhid ailələri, müharibə veteranları, döyüşlərdə sağlamlığını itirmiş qəhrəman övladlarımıza diqqət və qayğıya əsaslanan dövlət siyasətinin dəstəklənməsi, Milli Məclisin təşəbbüsü, müvafiq nazirliklərin və dövlət komitəsinin rəhbər heyətinin və əməkdaşlarının iştirakı ilə parlamentdə cəmiyyəti narahat edən bir sıra məsələlərin ictimai müzakirələrinin keçirilməsi, ölkəmizdə yeni siyasi konfiqurasiyada dialoq mühitinin möhkəmlənməsinə, siyasi sistemin subyektləri arasında əməkdaşlığın gücləndirilməsinə töhfə verilməsi, parlamentin beynəlxalq fəaliyyətinin daha səmərəli həyata keçirilməsi, eyni zamanda, Azərbaycanın milli maraq və mənafelərinin daha yaxşı qorunması kimi prioritet məsələlər haqqında fikirlərini ifadə edib.



Sonra çıxış edən Prezident Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib dövlət və xalq olmağımızla Azərbaycan dövlətçiliyi tarixində mahiyyət etibarilə tamamilə yeni inkişaf mərhələsinin başlandığını, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda bu gün həyata keçirilən quruculuq işlərinin - vandallar tərəfindən yerlə-yeksan edilmiş şəhər və kəndlərimizin sürətlə bərpasının əzəli torpaqlarımıza qayıdışımızı günbəgün yaxınlaşdırmaqla yanaşı, bütün dünyaya ölkəmizin qüdrətini, dövlətimizin başçısının möhkəm iradəsini, yüksək idarəçilik məharətini və qurub-yaratmaq əzmini nümayiş etdirdiyini diqqətə çatdırıb. O, müxtəlif dövlət orqanları və qurumları ilə yanaşı, Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən genişmiqyaslı layihələrin də göstərilən fəaliyyətə əsaslı təkan verdiyini vurğulayıb.

Şöbə müdiri bildirib ki, indi tarixi Qələbəmizin möhkəmləndirilməsi, şəhid ailələri və müharibə iştirakçılarına qayğının davam etdirilməsi, düşmən tapdağından azad olunmuş ərazilərimizin dirçəldilməsi, erməni təcavüzkarlığının yenidən baş qaldırmaması və təqsirkarların məsuliyyətə cəlb edilməsi üçün haqq işimizlə bağlı beynəlxalq müstəvidə məqsədyönlü fəaliyyət göstərilməsi bütünlükdə Azərbaycan cəmiyyətinin qarşısında duran ən əsas vəzifələrdəndir.

Ədalət Vəliyev Prezident İlham Əliyevin apardığı sistemli və çoxşaxəli inzibati-siyasi islahatların nəticələrindən danışaraq ölkədə iqtidar-müxalifət dialoqunun, yeni siyasi konfiqurasiyanın qurulduğunu, siyasi partiyalarla işin yenidən təşkil edildiyini deyib. Bildirilib ki, dövlətimizin başçısının tapşırığı əsasında üzvlərinin sayına, yaxud ölkə ərazisini əhatə vəziyyətinə görə böyük-kiçikliyindən, siyasi çəkisindən və ya hər hansı digər amildən asılı olmayaraq, ölkədəki bütün siyasi partiya rəhbərləri ilə çoxsaylı görüşlər keçirilib və hər bir görüşün nəticələri müfəssəl təhlil olunaraq verilmiş təkliflər üzrə müvafiq addımlar atılır.



Fərdi görüşlərlə yanaşı, siyasi partiyaların mütləq əksəriyyətinin iştirakı ilə müxtəlif mövzularda çoxtərəfli görüşlər də təşkil edildiyini vurğulayan şöbə müdiri bu qəbildən olan sonuncu - 45 siyasi partiyanın iştirakı ilə keçirilmiş 9 sentyabr tarixli görüşdə aparılan müzakirələrdə çıxış edənlərin dövlətimizin başçısının ölkədə formalaşdırdığı yeni siyasi konfiqurasiyanın davamlı sabitliyin qorunması və dövlətin inkişafı naminə bütün imkanların səfərbər olunmasında əhəmiyyətini, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə qazanılmış Zəfərin Azərbaycan tarixində ən əlamətdar hadisə kimi yerini xüsusi qeyd etdiklərini, dövlətimizin başçısının işğaldan azad olunmuş ərazilərə səfərləri, bu şəhər və kəndlərdə yüksək sürətlə həyata keçirilən bərpa-quruculuq işləri, yolların salınması, elektrik stansiyalarının, aeroportların tikilməsi, "Xarıbülbül" festivalı, Vaqif Poeziya Günləri kimi mədəni tədbirlərin təşkil olunmasını yüksək qiymətləndirdiklərini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Həmçinin bildirilib ki, siyasi partiyalar xarici siyasət sahəsində atılmış addımları, Şuşa Bəyannaməsinin imzalanmasını, eləcə də Azərbaycan Respublikası Prezidentinin Qərbi Zəngəzurla bağlı mövqeyini təqdir edir və dəstəkləyir.

Dövlətimizin başçısının zamanın tələbləri ilə uzlaşan islahat və inkişaf konsepsiyasının növbəti mərhələsinin səciyyəvi cəhətlərinə toxunan Ədalət Vəliyev müxtəlif siyasi qüvvələrin adekvat təmsil olunduğu VI çağırış Milli Məclisdə yeni demokratik mühit formalaşdığını, müxalifət nümayəndələrinin parlamentdə rəhbər vəzifələr tutduğunu deyib. Qeyd edilib ki, Milli Məclisin fəaliyyətinin dövlətimizin başçısının daxili və xarici siyasətinə, eləcə də tövsiyələrinə uyğun olaraq yüksək səviyyədə qurulması üçün zəruri addımların atılması, o cümlədən deputat fəallığının artırılması ilə vətəndaş məmnunluğu yüksəldilib.

Ədalət Vəliyev çıxışında, həmçinin icra hakimiyyəti ilə qanunvericilik hakimiyyəti arasında əməkdaşlığın daha da təkmilləşdirilməsi perspektivlərinə toxunaraq konkret istiqamətlər üzrə xüsusi diqqət yetirilməsi zəruri olan məsələləri tədbir iştirakçılarının diqqətinə çatdırıb, işin daha yüksək səviyyədə qurulmasına xidmət edən müvafiq təkliflər səsləndirib.

Sonra müzakirələrə başlanılıb.

Müzakirələrdə Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədr müavini, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə,



Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, İntizam Komissiyasının sədr müavini, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyev, İnsan hüquqları komitəsinin sədr müavini, Vəhdət Partiyasının sədri Tahir Kərimli, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov, Elm və təhsil komitəsinin sədr müavini Musa Qasımlı, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Hikmət Məmmədov, Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Gənclər və idman komitəsinin sədr müavini Şahin İsmayılov, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev, Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxış edərək, müzakirə olunan mövzu barədə fikir və təkliflərini səsləndiriblər.

Çıxışlarda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə olunmuş Zəfərin, habelə son illər aparılmış siyasi-hüquqi-institusional islahatların dövlətçiliyimizin inkişafında açdığı yeni mərhələnin səciyyəvi cəhətləri təhlil edilib, ölkənin yeni siyasi konfiqurasiyasının davamlı sabitliyin təmini və dayanıqlı inkişaf üçün əhəmiyyəti vurğulanıb, həmçinin Milli Məclisin müvafiq proseslərdə iştirakı, verə biləcəyi töhfələr, eləcə də parlamentin icra hakimiyyəti orqanları ilə daha sıx əməkdaşlıq qurması perspektivləri nəzərdən keçirilib.











**Sentyabrın 21-də Yeni Azərbaycan Partiyasının Qaradağ, Yasamal, Səbail və Nərimanov rayon təşkilatlarının yeni sədrləri Qafar Əliyev, Bəxtiyar Nəbiyev, Muxtar Nağıyev və Samir Vəliyev ərazi partiya təşkilatlarının sədrlərinin də iştirakı ilə keçirilən yığıncaqlarda yerli təşkilatların partiya aktivinə təqdim olunub.**

# "Ölkəmizin böyük nailiyyətlər qazanmasında Yeni Azərbaycan Partiyasının da xüsusi rolu var"

## YAP-ın Qaradağ, Yasamal, Səbail və Nərimanov rayon təşkilatlarının yeni sədrləri partiya aktivinə təqdim edilib



















Öncə Yeni Azərbaycan Partiyasının rayon təşkilatlarının inzibati binasında partiyanın qurucusu, ulu öndər Heydər Əliyevin abidəsinin önünə gül dəstələri düzülüb, Ümummilli Liderimizin xatirəsi yad edilib.

Tədbirlərdə çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev Azərbaycanın ötən dövr ərzində möhtəşəm nailiyyətlərə imza atdığını bildirib. Qeyd edilib ki, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan dünyanın sürətlə inkişaf edən ölkələri sırasına qoşulub. Ötən il 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi isə Azərbaycanın regionda və dünyada mövqelərini daha da möhkəmləndirib.

Ə.Tağıyev deyib ki, ölkəmizin böyük nailiyyətlər qazanmasında Yeni Azərbaycan Partiyasının da xüsusi rolu var. Belə ki, partiyamızın fəalları ölkəmizin inkişafına öz töhfələrini verir, Prezident, partiyamızın Sədri cənab İlham Əliyevin siyasətinin uğurlarını ictimaiyyət arasında aktiv şəkildə təbliğ edirlər.

Vurğulanıb ki, bu ilin mart ayında keçirilən YAP-ın VII Qurultayı və qurultayda qəbul olunmuş qərarlar partiyamızın inkişafında yeni mərhələnin əsasını qoydu. Qurultayda partiyamızın Sədri, Prezident İlham Əliyevin proqram xarakterli nitqi, yeni nizamnamənin qəbul olunması və digər mühüm qərarlar YAP-ın gələcək fəaliyyətində böyük önəm daşıyan amillərdir. YAP İdarə Heyətinin sentyabrın 10-da keçirilən iclasında partiyanın Bakı şəhəri üzrə rayon təşkilatlarının yeni sədrləri təyin olunub.

Tədbirlərdə çıxış edən Qafar Əliyev, Bəxtiyar Nəbiyev, Muxtar Nağıyev və Samir Vəliyev göstərilən etimada görə partiya rəhbərliyinə təşəkkürlərini bildiriblər. Təşkilat sədrləri bu etimadı böyük məsuliyyət kimi qəbul etdiklərini vurğulayaraq səylə çalışacaqlarını qeyd ediblər.

Tədbirlərdə həmçinin, Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov, Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov, Səbail Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalov, Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev və YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Məmmədov rayon təşkilatlarının yeni sədrlərini təbrik edərək, gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Qeyd edək ki, tədbirlərdə yerli təşkilatların gələcək fəaliyyəti ilə bağlı qarşıda dayanan vəzifələrə dair müvafiq tövsiyələr verilib.





# Lənkəranda Ümumrespublika "Xəmsə" Festivalının VII mərhələsi keçirilib

Sentyabrın 21-də Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin təşkilatçılığı və ölkəmizin cənub bölgəsinin rayonlarından olan gənclərin iştirakı ilə Ümumrespublika "Xəmsə" Festivalının VII










mərhələsi keçirilib.

Festival iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Tədbirdə çıxış edən YAP Lənkəran şəhər təşkilatı sədrinin səlahiyyətlərini icra edən Möhübbət Babayev "Nizami Gəncəvi İli"ndə keçirilən Ümumrespublika "Xəmsə" Festivalının əhəmiyyətini yüksək dəyərləndirərək, Lənkəran şəhərində festivalın keçirilməsinin region gənclərinin marağına və xüsusi fəallığına səbəb olduğunu söyləyib.



Sonra YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov çıxış edərək bildirib ki, bu gün ölkəmizin cənub bölgəsində yaşayan gənclərin təhsilə, elmi biliklərə yiyələnməsi və eyni zamanda ictimai fəallığa malik olması çox önəmlidir. "Nizami Gəncəvi İli"nə həsr olunmuş Festivalın əsas hədəflərindən biri də məhz həmin gənclərin bu istiqamətdə inkişafına nail olmaqdır.

Lerik, Biləsuvar, Cəlilabad, Cəbrayıl, Yardımlı, Masallı, Lənkəran və Astara rayonlarını təmsil edən bitərəf və YAP üzvü olan gənclərdən ibarət komandaların iştirakı ilə keçirilən VII regional turun yekun nəticələrinə əsasən "Lənkəran" komandası festivalın final mərhələsinə vəsiqə qazanıb. Qeyd edək ki, sentyabr ayının sonunadək davam edəcək Festivalın növbəti turu Mingəçevir şəhərində keçiriləcək.

# YAP Nizami rayon təşkilatında tələbələr mükafatlandırılıb







Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatında bu il ali məktəblərə keçirilən qəbul imtahanlarında yüksək nəticələr göstərən tələbələrlə görüş keçirilib. SİA-nın məlumatına görə, YAP Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov, Milli Məclisin deputatı Sədaqət Vəliyeva, rayon təşkilatının "Sərdaroğulları" ərazi partiya təşkilatının sədri, "Missiya" media qrupunun rəhbəri Ramin Əhmədov gəncləri təbrik edib, təhsilin inkişafına göstərilən dövlət qayğısından, bu sahədə əldə edilən uğurlardan danışıblar.

Bildirilib ki, bu il Nizami rayonu üzrə 1857 nəfər 11-ci sinfi bitirib. 1592 nəfər ali məktəblərə qəbul üçün sənəd verib. Onlardan 1184 nəfəri ali məktəblərə qəbul olub. Rayon üzrə 174 nəfər 500-600, 70 nəfər 600-650 arası, 25 nəfər isə 650 baldan yüksək nəticə göstərib. Rayon tələbələrindən 118 nəfəri Rusiya, Türkiyə, Polşa, Çexiya, ABŞ, Almaniya, Gürcüstan, Macarıstan, Ukrayna və başqa ölkələrin nüfuzlu universitetlərində təhsil almaq hüququ qazanıblar.

Vurğulanıb ki, respublikamızın hər yerində Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə müasir məktəb binalarının tikintisi, onların maddi texniki bazasının möhkəmləndirilməsi məhz bu sahəyə olan diqqət və qayğını göstərir. Natiqlər aparılan islahatların kökündə insan amili dayandığını və bu kontekstdə güclü kadrlara olan tələbatın bir zərurətə çevrildiyini bildirib, gənclərə şəxsi həyatlarında və təhsildə uğurlar diləyiblər.

Görüşdə iştirak edən tələbələr, onların valideynləri də öz növbəsində Prezident İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya, partiya rəhbərliyinə təşəkkür ediblər. Onlar gənclərə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirib, yaradılan şəraitdən lazımınca yararlanaraq, ölkəmiz üçün savadlı mütəxəssis kimi yetişəcəklərinə söz veriblər. Sonda yüksək bal toplayan tələbələrə hədiyyələr təqdim edilib.

# Fərid Şəfiyev: "Azərbaycan Oxçuçayda ekoloji fəlakətə səbəb olan şirkəti beynəlxalq məhkəməyə verəcək"



Ermənistanda Zəngəzur mis-molibden kombinatını Almaniyanın "CRONİMET Holding" şirkəti işlədib. Bu kombinat Oxçuçayda ekoloji fəlakətə yol açıb.

AZƏRTAC xəbər verir ki, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və ADA Universitetinin birgə təşkilatçılığı ilə "Azərbaycanın Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarında ətraf mühitin və təbii sərvətlərin vəziyyəti" mövzusunda Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri üçün keçirilən brifinqdə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev deyib.

Avropada korporativ məsuliyyətə xüsusi diqqət yetirildiyini bildirən F.Şəfiyev qeyd edib: "Mən özüm də Avropada, Almaniyada işləmişəm, bunun şahidiyəm. Azərbaycana gələndə fərqli davranış sərgilənir. Azərbaycan yaxın vaxtlarda həmin alman şirkətini beynəlxalq məhkəməyə verəcək, siz bunun şahidi olacaqsınız".

# Məktəblilərin məktəb həyəcanı



Artıq yeni tədris ilinin başlamasına az qalıb. Bildiyimiz kimi, pandemiya səbəbindən bu il yeni dərs ilinə ibtidai siniflər üçün sentyabr 22-dən start veriləcək. Yeni dərs ilini digər şagirdlərlə yanaşı, məktəb həyatına ilk qədəmlərini qoyan birincilər səbirsizliklə gözləyirlər. Məktəbin həyətində yeni tədris ili münasibətilə keçirilən tədbirdə əllərində gül-çiçək dəstələri ilə əylənən birincilər üçün tədbirin sonrası o qədər də asan olmur. Elə əsl problem də tədbirdən sonra başlayır. Bəzi uşaqlar ilk dərs ilini həyəcanla gözləsə də, həmin gün çatdıqda onlar dərsdə müəllimlərindən qorxur, hər zaman onların yanında olan valideynlərindən ayrıla bilmirlər. Hətta bəzi valideynlər dərs bitənə qədər sinif otağında əyləşmək məcburiyyətində qalırlar. Belə uşaqlarda məktəbə adaptasiya olmaq prosesi dərs həftəsi bitənə qədər davam edir. Uşaqlarda şüuraltı olaraq yaranan məktəb fobiyası onların təhsilinə ciddi təsir edir.

## Bəs, məktəb fobiyası nədir?

Məktəb fobiyası haqqındakı araşdırmalara ilk dəfə 1930-cu illərdə başlanıb. 1960-1970-ci illər arasındakı tədqiqatların nəticələrinə görə, ABŞ-da ibtidai siniflərdə təhsil alan hər min şagirddən onunda məktəb xofu müşahidə edilib. Müasir tədqiqatlara görə isə şagirdlərin təxminən 8%-i məktəbə gedəndə qorxu hissi keçirirlər. 3 yaşdan 14 yaşadək 1034 Venesuela məktəblisi arasında aparılan tədqiqatın nəticəsi göstərib ki, uşaqlar uğursuz sınaq, pis qiymət, direktorun otağına düşmək, imtahan, yazı lövhəsinə çağırılmaq, sinif qarşısında dərsə cavab vermək, qəfil cavab verməyə çağırılmaq, məktəbdə xəstələnmək və səhvə yol vermək kimi hallardan qorxusundan məktəbə getmək istəmirlər. Həmçinin, məktəb qorxusu olan şagirdlərin ailə tərkibini öyrənən digər tədqiqatlar göstərib ki, belə uşaqların 55%-i ya ailənin tək uşağı, ya da ən kiçik uşağıdır. Eləcə də, tək valideynli ailələrin uşaqları hər iki valideyni olan uşaqlara nisbətən əhəmiyyətli dərəcədə çox dərs buraxırlar.

## Uşaqları gözləyən təhlükə

Yeni dərs ilində məktəbə gedəcək uşaqlar üçün sağlam orqanizm ən önəmli amildir. Çünki xüsusilə bu yaşlarda uşaqlarda görmə zəifliyi, psixoloji və onurğa əyriliyi kimi problemlər özünü göstərir. Son zamanlar uşaqlar arasında ən çox rast gəlinən xəstəlik olan onurğa əyriliyi ilə bağlı dəfələrlə müxtəlif fikirlər səslənsə də, bu mövzu hələ də öz aktuallığını qoruyub saxlayır. Valideynlərin burada diqqət etməli olduğu məsələlərdən biri uşaqlarına böyük ölçüdə çantalar almamaqdır. Bir vaxtlar məktəblilərin istifadə etdiyi kiçik çantaları son illər artıq daha böyük ölçüdə çantalar əvəz edib. Bu gün uşaqlar içərisi çoxsaylı məktəb ləvazimatı ilə dolu olan ağır çantaları götürmək məcburiyyətində qalırlar. Həm çantanın öz çəkisi, həm də içərisindəki ağırlıq uşaqlarda onurğa ilə bağlı xəstəliklərin yaranmasına səbəb olur. Bu gün dünyada bu problemlə qarşılaşan uşaqların sayının artdığını deyən mütəxəssislər də sürətlə artan onurğa əyriliyinin bir çox problemlərə yol açdığını təsdiq edirlər.

**Mövzu ilə bağlı Təhsil Nazirliyinin yanında İctimai Şuranın məsul katibi, fəlsəfə doktoru İlqar Orucov fikir bildirib:** "Hamının gözlədiyi kimi yeni tədris ili ənənəvi formada 1-4-cü siniflər üçün artıq bu gündən etibarən başladı. Əlbəttə ki, il yarım bundan öncə məktəblərin qapanması ilə şagirdlər, bütövlükdə təhsil ictimaiyyəti onlayn rejimlə çalışdı. Çox az bir fasilə ilə, qısamüddətlərdə təhsil ənənəvi formada davam etdi".



Onun sözlərinə görə, ümumilikdə yay tətilindən sonra şagirdlərin məktəbə adaptasiyasında hər zaman müəyyən problemlər olur: "Çünki 3 aya yaxın bir müddətdə şagirdlər məktəbdən təcrid olublar. Nəzərə alsaq ki, iki ilə yaxındır ki, uşaqlar məktəbdən bu və ya digər şəkildə uzaq düşüblər. Bu xüsusilə ibtidai siniflər üçün daha spesifikdir. Çünki onlar ailəyə daha çox bağlı olurlar. Ona görə də, ilk iki həftə ərzində adaptasiya prosesi gedəcək. Ümid edirəm ki, bizim şagirdlərimizin məktəbə adaptasiyası uğurla alınacaq. Ümumilikdə birinci sinifə qədəm qoyan şagirdlərin məktəbə adaptasiya müddəti daha uzun çəkir. Elə şagirdlər var ki, onlar bütövlükdə baxçaya və yaxud məktəbəhazırlıq kurslarına getmədən birdəfəlik məktəbə gedirlər. Xüsusilə rayonlarda, ucqar bölgələrimizdə bu problem daha çox var. Amma məktəb birincilər üçün yeni bir fəaliyyətdir, yeni bir mühitdir. Müəllimlər şagirdlərimizin həmin adaptasiya prosesindən uğurla çıxmağına kömək edəcəkdir. Eyni zamanda məktəb rəhbərləri bu istiqamətdə şagirdlərlə maraqlanmalıdırlar".

Mövzu ilə bağlı **psixoloq Fərqanə Mehmanqızı** qeyd edib ki, şagirdlərin məktəbə adaptasiya olması o qədər çətin olmayacaq: "Nəzərə alsaq ki, uşaqlar iki ildir məktəb həsrəti çəkir, adaptasiya prosesi çox asan və rahat olacaq. Ümumiyyətlə, adaptasiya prosesi individual prosesdir. Hər şəxsin özünün fərdi olaraq xasiyyətindən irəli gələn bir prosesdir. Bu proses müddətində müəllimlərimizdən daha səbrli olmağı xahiş edirik. Sosial mühitə, məktəb mühitinə alışmaq, qayda və qanunlara riayət etmək uşaqların adaptasiya olmasında mühüm məsələdir".



"Artıq bu gündən etibarən orta ümumtəhsil müəssisələrində ibtidai siniflər üzrə dərslər başladı. Şagirdlərin adaptasiya prosesində bir o qədər çətinlik olmayacaq". Bu fikirləri mövzu ilə bağlı açıqlamasında təhsil məsələləri üzrə ekspert **Elçin Əfəndi** deyib.



Onun sözlərinə görə, orta ümumtəhsil müəssisələrinin ibtidai siniflərində təhsil alanlar dərslərə ənənəvi qaydada olsa, fevral ayından etibarən dərslərə qoşulmuşdular: "Yalnız ənənəvi dərslərdən kənar qalanlar 10 və 11-ci sinif şagirdləri idi. Onların məktəbə adaptasiya olunmasında müəyyən sıxıntılar yaşanacaq. 29 sentyabr tarixindən etibarən artıq 10 və 11-ci siniflər dərslərə başlayacaqlar. Bizim üçün vacib olan odur ki, dərslər ənənəvi qaydada tədris olunacaq. Burada əsas məsələ şagirdlərin, müəllimlərin, təhsil işçilərinin izolyasiya qaydalarına əməl etmələridir. Təhsil işçilərinin artıq 90%-ə yaxını vaksinasiya prosesindən keçib. Bu isə gələcəyə nikbin baxmağa əsas verir. İnanıram ki, biz dərsləri bu tədris ilinin sonuna qədər ənənəvi qaydada apara bilərik. Şagirdlərin də ənənəvi qaydada təhsil almalarının digər üstünlüyü ondan ibarətdir ki, onların qiymətləndirilməsi də əyani şəkildə olacaq. Ötən il aparılan qiymətləndirilmə onlayn qaydada oldu. Bu zaman çox təəssüflər olsun ki, tam obyektiv qiymətləndirilmə aparılmadı. Ənənəvi qaydada isə demək olar ki, tam obyektiv şəkildə qiymətləndirməni həyata keçirmək düzgün olacaq".

**3-cü sinif şagirdi Eldar Mahmudovun valideyni:** "Oğlum 3-cü sinifə keçdi. Hər kəs kimi biz də yeni tədris ilinin başlanması münasibəti ilə məktəb bazarlığı etdik. Geyim olaraq bir şalvar bir köynək aldıq. Lakin nəzərə almaq lazımdır ki, tədris ili yeni başlayır hələ bundan sonra da xeyli dəftər və s. ləvazimatlar alınacaq. Yəni, digər xərclər məktəb başladıqdan sonra bilinəcək. Kitab isə məktəb tərəfindən verilir. Dərsin başlanması üçün çox həyəcanlıyıq".



**1-ci sinif şagirdi Mehman Hüseynalıyevin valideyni:** "Oğlum bu il məktəbə ilk qədəmlərini qoyur. O, məktəbə gedəcək deyə çox həyəcanlıdır. Müəllimləri və sinif yoldaşları ilə tanış olmağa can atır. İlk ilidir deyə məktəb bazarlığı çox məsrəfli oldu".



**3-cü sinif şagirdi Nihat Qədimalizadənin valideyni:** "Dərslər kifayət qədər çətindir. Əvvəllər 6 və ya 7-ci siniflərə tədris olunan fənlər indi 2-3-cü siniflərə keçirilir. Kitablar da çox ağırdır. Daşımaq çətin olur. Digərləri isə nisbətən normaldır. Ən çətin fənn isə riyaziyyatdır. Dərslərin başlanması üçün hər il olduğu kimi bu il həyəcanlıyıq".



**5-ci sinif şagirdi Fidan Əlizadə:** "Artıq bir neçə günə yeni tədris ili başlayır. Hər kəs kimi biz də çox həyəcanlıyıq. Bu il artıq 5-ci sinifə keçirəm. İnşallah hər şey yaxşı olar".



Bu il bir çox uşaq məktəb zəngi ilə ilk dəfə tanış olacaq. Uzun illər davam edəcək təhsil həyatının bu ilk addımı həm uşaqlar, həm ailələr, həm də məktəbdəki müəllimlər üçün asan bir proses deyil. Elə isə bu prosesdə uşaqlara necə kömək etməliyik?

## Şagird-valideyn münasibətləri

Normal bir gün kimi davranın: Uşaqları bu ilk günə hazırlayarkən, valideynlər uşaqlardan daha təlaşlı ola bilərlər. Valideynlərin bu vəziyyəti uşağa da çox təsir edə bilər. Bu səbəbdən uşağın normal bir gün kimi davranması çox vacibdir. Hər bir uşaq ilk gün narahatlıq keçirə bilər, amma narahat olmayın. Hər bir uşaq həm valideynlərinin, həm də müəllimlərinin köməyi ilə qısa müddətdə məktəbə adaptasiya olacaq.

## Uşağınızın yanında olun

Uşağınızın ilk günündə yanında olmalısınız. Uşağın ilk gün ən çox narahat olduğu şey, hər zaman məktəbdə qalmaq və evə qayıtmamaqdır. Bu cür narahatlıqları aradan qaldırmaq üçün uşağa aydın məlumatlar verilməli və onu təsəlli etməlisiniz.

## Uşağınıza tərif və dəstəklə dəstək verin

Valideynlərin ibtidai məktəbə yeni başlayan uşaqlara yanaşması çox vacibdir. Uşağı qorxudacaq davranışlardan və ifadələrdən çəkinməlisiniz və övladınızı tərif və dəstəklə dəstəkləməlisiniz. İbtidai sinif səviyyəsində təhsil alan uşaqlarla bağlı araşdırmalara baxdığımızda, məktəbəqədər dövrdə uşaqlarına qeyd-şərtsiz sevgi və dəstək verən ailələrin uşaqlarının həyatlarının sonrakı dövrlərində daha müvəffəqiyyətli olduqları müəyyən edilib.

## Məktəbə uyğunlaşmaqda çətinlik çəkən bir uşağınız varsa...

Məktəbin ilk günlərində və sonrakı günlərdə sinifdə və ya kolidorda valideynlərin olması uşağın məktəbə alışmasını çətinləşdirən bir faktordur. Valideynlər uşağı müəllimə təhvil verdikdən sonra məktəbi tərk edə bilərlər. Uşağınızın məktəbə uyğunlaşma prosesində problemləri varsa, məktəbin rəhbərliyi ilə əlaqə saxlamalı və uyğun davranış modelini təyin etməlisiniz.

## Uşağınız səhər məktəbə gəlməyinizdə israr edərsə...

Ona hər kəsin bir vəzifəsi olduğunu və vəzifəsinin məktəbə getmək olduğunu izah edə bilərsiniz. İstifadə etdiyiniz ifadələrin qısa, aydın və dəqiq olması vacibdir. Əlavə olaraq, sözlərinizin və davranışlarınızın ardıcıl və qətiyyətli olması çox vacibdir.

## İşləyən valideyn-şagird əlaqəsi

Bu gün bir çox uşaq işləyən valideynlərə görə 1 yaşında bağçalara verilir. Buradakı ən vacib məqamlardan biri, anaya uyğun olduğu təqdirdə, ananın uşağa ən az 3 yaşına qədər baxması və ya anaya ən yaxın adamın uşağa baxmasıdır. 3 yaşına qədər uşaq sıx diqqət və sevgi gözləyir. Valideynlərin hər hansı bir evdən uşağa göstərdiyi diqqət və sevgini gözləmək çox doğru davranış deyil; çünki bağçalar yalnız kiçik uşaqlara qulluq edir. Uşaq üçün uşaq bağçasından başqa bir seçim yoxdursa, valideynlərin uşaqla keçirdiyi vaxt keyfiyyət baxımından çox məhsuldar olmalıdır.

## Müəllim-valideyn münasibətləri

Müəllimlərin də üzərinə böyük məsuliyyət düşür. Keçmişdə istifadə olunan intizam üsulları uşaqlar üçün maneə törətmir. Uşaqlar indi başa düşmək istəyirlər. Müəllim şagirdlərin duyğu və düşüncələrinə əhəmiyyət verməli və buna uyğun hərəkət etməlidir. Bu kontekstdə, hər bir uşağın hər vəziyyətdə eyni reaksiyanı verməyəcəyini unutmamaq lazımdır. Tərbiyəçilərin onlara qarşı deyil, şagirdin yanında olduğunu göstərmək, onların təhlükəsiz olmasını təmin edəcək.

Uyğunlaşma problemi yaşayan şagirdlərdə aşağıdakı hallar olur:

- Ağlama və ya sözlə ayrılığa etiraz;
- Valideynlərinin qucağından düşmək istəməyən;
- Qucaqlayaraq məktəbdən çıxmalarına icazə verməmək;
- Arxanızda ağlamaq;
- Qrupa qoşulmadan məktəbdə bir küncdə sakit oturmaq;
- Daim valideynlərinin nə vaxt gələcəyini soruşmaq və qapını tərk etmək istəmək.

*Arzu Qurbanzadə*



# Ermənistan - haram üzərində qurulan dövlət

**1990-cı il avqustun 23-də Ermənistan SSR-nin Ali Soveti İstiqlal Bəyannaməsini qəbul edərək Ermənistan SSR-nin ləğvini və Ermənistan Respublikasının müstəqilliyini elan edib. 1991-ci il sentyabrın 21-də Ermənistan vətəndaşları müstəqillik referendumunda SSRİ-dən ayrılmaq üçün səs vermişdi. Həmin tarixdən respublikanın müstəqilliyi günü sayılır. Birinci Ermənistan Respublikası 1918-ci il mayın 28-də təsis edilmişdi. Bu respublika 1920-ci ildə bolşeviklər tərəfindən işğal olunmuşdu.**

Ermənistan hökuməti müstəqilliyin 30 illiyinə həsr olunmuş bayram tədbirlərinin keçirilməsinə dair qərar qəbul edib. Ölkənin Baş naziri Nikol Paşinyan bildirib ki, sentyabrın 21-də İrəvanda Respublika meydanında müstəqillik günü geniş miqyasda qeyd olunacaq: "Məlum səbəblərdən bayram ovqatında olmasaq da, Ermənistan Respublikasının müstəqilliyinin 30-cu ildönümünü lazımi şəkildə qeyd etməliyik". Hətta hökumət sentyabrın 20-ni 25-i ilə əvəzləyərək qeyri-işi günü elan edib.

Əslində, hakimiyyət bayram tədbirləri keçirsə də, ictimaiyyət və müxalifət N.Paşinyan hökumətinin qərarına etiraz edib. Aksiya iştirakçıları bildiriblər ki, təntənəli bayram tədbirlərinin keçirilməsi 44 günlük müharibədə itkin düşənlərə və ölənlərə hörmətsizlikdir. Ermənistan Polisi sentyabrın 20-i və 21-də İrəvanda Respublika meydanına gedən bütün yolları bağlayıb.






Bəs görəsən, 30 il ərzində Ermənistan müstəqil ola bilib? Yaxud indikinin 1918-ci ildə qurulandan elə ciddi fərqi var? İstər SSRİ dövründə, istərsə də indiki müstəqillik illərində bir daha sübut olundu ki, Ermənistan SSR kimi, Ermənistan Respublikası da Rusiyanın himayədarlığı olmadan mövcudluğunu itirər. Çünki tarix sübut edib ki, bu dövlətin təməli düzgün deyil, qurulması ideyaları yalandır. Regionda başqalarına xidmət etməklə mövcudluqlarını qoruyurlar. Odur ki, 103 və ya 30 ildir Ermənistan vətəndaşları və ermənilər yanlış yolla gedirlər.



Ümumiyyətlə, 103 il əvvəl Ermənistandakı dövlət Osmanlı dövlətinə və Azərbaycan Xalq Cümhuriyyətinə düşmənçilik əsasında qurulmuşdu. Ermənilər o vaxtkı havadarlarının yardımı ilə Azərbaycanın daha çox ərazisini işğal etməyə çalışırdı. Əslində, bu dövlət Azərbaycan torpaqları üzərində formalaşdırılmışdı. Bununla belə, ermənilər Azərbaycanın Qarabağ bölgəsini də işğal altında saxlamağa çalışır, hətta boşeviklərin yardımı ilə Bakının da ermənilərin nəzarətində qalmasına çalışırdılar. Bu respublika süquta uğrayandan sonra Ermənistan SSR Sovetlər daxilində müttəfiqi sayılan Azərbaycan SSR-yə qarşı müxtəlif səviyyələrdə düşmənçilik apardı. Həmin illərdə Ermənistanda "Qarabağ komitəsi", "Miatsum" ("Birlik") adlı qurumlar yaratmaqla Azərbaycana qarşı yeni ərazi iddialarını reallaşdırmağa başladılar. Onların apardığı bu gizli fəaliyyət 1988-ci ildən sonra üzə çıxdı. Ermənilərin gizli sayılan bu fəaliyyətindən o vaxt Moskvanın, xüsusilə Dövlət Təhlükəsizlik Komitəsinin xəbərsiz olduğu inandırıcı görünmürdü. Elə sonrakı hadisələr bu prosesdə "KQB"nin əlinin olduğunu təsdiqlədi.

SSRİ dağılan ərəfədə sovet hərbçilərinin dəstəyi ilə ermənilər azərbaycanlıların Ermənistandan didərgin salınmasına nail oldular. Bununla da Azərbaycanın tarixi Qərbi Azərbaycan bölgəsi, Zəngəzur, Göyçə mahalları işğal olundu. Keçmiş SSRİ-nin mövcudluğunun son ilində isə ermənilər xarici havadarları, o cümlədən Rusiya və lobbinin yardımı ilə Azərbaycan torpaqlarının 20 faizini işğal etdilər, bir milyondan çox Azərbaycan vətəndaşı öz torpaqlarından qaçqın düşdü.

Ermənistanın yaranmasının əsasında duran başlıca ideya Azərbaycan və Türkiyə düşmənçiliyi olub. Bu ideologiya ilə milyonlarla erməni gənci zəhərlənib, bu düşmənçiliyin qurbanına çevrilib. Yüz ildən artıqdır ermənilərə yanlış milli tərbiyə verirlər. Təəssüf ki, yanlış ideya-siyasi düşüncə ilə zəhərlənən ermənilər hakimiyyətə gəlib, Xocalı kimi soyqırımları törədiblər. Ermənistanın 30 il ərzində ən böyük "nailiyyəti" Azərbaycan torpağını işğal altında saxlamaq və buralardan qovmaq olub. Bundan başqa, Ermənistan nə dünya iqtisadiyyatı, nə də təhlükəsizliyi üçün heç bir töhfə verməyib.

Düşmənçilik, özgə torpağını özününküləşdirmək ruhunda böyüyüb tərbiyələnən ermənilər ordu qurdular. İşğal etdikləri Şuşada halay vurub rəqs etdilər. Azərbaycanı yeni torpaqları işğal etməklə hədələdilər. Ancaq 103 ildən sonra Ermənistan layiqli cavabını aldı. 103 ilə qurulan ordu Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatı nəticəsində 44 gündə darmadağın oldu. Ermənistan ordusu barədə yaradılan mif də onunla birlikdə yoxa çıxdı. Azərbaycanın apardığı ədalətli müharibə ermənilərin uzun illərdir bir-birinə ötürdükləri "dənizdən dənizə" mifik, fantastik ideyasını da məhv etdi.

Məlum oldu ki, 30 il ərzində Ermənistanda hakimiyyətə gələnlər dövlət qurmaqla deyil, işğal etdikləri Azərbaycan torpaqlarına görə aldıqları ianələrin hesabına varlanıblar. Ermənistan ordusunun generalları əsgərlər üçün nəzərdə tutulan konservləri satdıraraq malmülk sahibi oldular. Ermənistan prezidentləri Levon Ter-Petrosyan, Robert Koçaryan, Serj Sarqsyan və onların tabeliyində olan neçə-neçə generallar, nazirlər, müdafiə nazirləri həmin ianələrin sayəsində dövlət qurmağa çalışdılar. İşğal edilən Azərbaycan torpaqlarındakı yeraltı sərvətlərin talanması nəticəsində Ermənistanda iqtisadiyyat qurmağa cəhd göstərildi.

Nəhayət, Nikol Paşinyan 2020-ci il noyabrın 10-da Ermənistan Respublikasının 30 illik fəaliyyətini, 103 illik yanlış ideyaların, miflərin dağılmasının kapitulyasiyasını imzaladı.

Beləliklə, heç bir qanun, heç bir din başqasının malına yiyələnməyə haqq vermir. Bu baxımdan, Ermənistan 103 il özgə torpaqlarında səhv düşüncə nəticəsində qurulub. Həmin yanlışlıq 30 il bundan əvvəl də təkrarlanıb. Bütün dinlərdə haram və halal kateqoriyaları var. Odur ki, bütün qanunlara və dinlərə görə Ermənistan haram üzərində qurulub. Bu kimi səbəblərdən regiona fayda verə bilmir. 30 ildir regionda ermənilərin adına bir şər dövləti bəsləyirlər...

***Sədrəddin İsmayılov***

# DİQQƏT:

## Valideynlərdən Covid-19 pasportu tələb olunacaq?



### TƏHSİL EKSPERTİ AÇIQLADI

**"Pandemiya dövründə tədrisin təşkili qaydalarında qeyd olunur ki, yaşı 18-dən yuxarı olan şəxslər əgər vaksin olunmayıblarsa, tədris prosesində iştirak etməyəcəklər. Amma bu valideynlərlə bağlı deyil. Ümumiyyətlə, hal-hazırda 22 sentyabrda 4400-ə yaxın orta ümumtəhsil məktəbində tədris bərpa ediləcək. Burada şagirdlərin məktəbə getməsi ilə bağlı hər hansı məhdudiyyət yoxdur". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.**

Onun sözlərinə görə, şagirdlərin tədrisdə iştirakı ilə bağlı o halda məhdudiyyət tətbiq ediləcək ki, onun ailə üzvlərindən kimlərinsə koronavirus olma ehtimalı var: "Amma hal-hazırda təhsil sisteminin 90 faizə qədəri vaksin olunub və Azərbaycanda saya görə ən yüksək vaksin olunma faizi təhsil sistemində çalışanlara aiddir. Bu onu deməyə əsas verir ki, hal-hazırda Azərbaycanda şagirdlərin məktəblərə, tələbələrin ali təhsil müəssisələrinə getməsində problem və məhdudiyyət yoxdur".

"Əgər tədris mərkəzinin işçilərinin bir qismi vaksin olunmayıbsa, bu həmin mərkəzdə tədrisə başlamağa mane olmur. Birmənalı şəkildə qeyd edim ki, heç bir məktəbdə 85 faizdən aşağı vaksin olunmayan yoxdur. Yəni, əksəriyyət vaksin olunub. Bu da tədris prosesinin təşkilində bir maneə olmadığını göstərir".

Kamran Əsədov sözlərinə belə davam edib: "Bir təhsil müəssisəsinin işçi sayının 80 faizi vaksin olunmalıdır. Əgər, faiz nisbəti 50-60-dırsa əlbəttə ki, həmin tədris müəssisələrində tədris prosesi başlaya bilməz. Bunu hər kəs bilməlidir ki, ənənəvi tədrisə qayıdırıqsa, ən vacib məqam vaksinasiyadır. Bu günə olan rəqəmlər isə bizə xoş xəbərlər verməyə imkan verir. Dərslər 22 və 29 sentabrda tam formada başlanacaq. Əgər kütləvi yoluxma halları müşahidə olunarsa, həmin təhsil müəssisələri qapanmaya keçəcək".

***Ayşən Vəli***

# "Azərbaycan nə etdisə, doğru etdi"

### POLİTOLOQDAN SƏRT TƏPKİ

**"Azərbaycan Xarici İşlər Nazirliyi İranın ölkəmizdəki səfirinə nota verdi, nəticəsi olmadı, yüklər qanunsuz olaraq yenə Qarabağ separatçılarına daşındı. Bundan sonra Qafan-Gorus yolunu qapatdıq ki, İran yüklərinin Qarabağa girişlərinin qarşısını alaq. İranın Ermənistandakı yük maşınları Azərbaycan gömrük rüsumları qarşısında ağır vəziyyətə düşdülər, bir neçəsi həbs olundu". Bu sözləri SİA-ya verdiyi açıqlamasında "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyib.**

Mərkəzin rəhbəri vurğulayıb ki, Azərbaycan nə etdisə, doğru etdi, sadəcə, İran Azərbaycandan bu qədər cəsarətli addımlar gözləmirdi. "Bizi zəif bilib, bildiklərini etməyə çalışırdılar. Alınmadı. Tehran hazırda bizə birbaşa deyə bilmir ki, yüklərimizi buraxın, gömrük rüsumu almayın. Ona görə bizi İranın ali dini liderinin Ərdəbildəki təmsilçisi Seyid Amuli səviyyəsində qorxutmağa çalışırlar. Ona da Azərbaycanla bağlı saxta informasiya əsasında mətn verib oxutdurublar.



Amuliyə cavabı Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri və ya rayonlarımızdan birinin məscidinin axundu versəydi, yaxşı olardı. Din xadimlərimizin, o cümlədən Allahşükür Paşazadənin, Hacı Şahinin işğaldan azad olunmuş Şuşada namaz qılmaları, şəhidlərimizin ruhlarına dualar oxumaları nə qədər vacib idisə, Azərbaycanı hədələyən axunda layiqli cavab vermələri bir o qədər əhəmiyyətlidir. Cəsarətli axunda ehtiyacımız var ki, Amuliyə faktlarla cavab versin. O da ki, hələ yoxdur, sanki məzhəb maraqları millət və təhlükəsizlik maraqlarından üstün gəlir. Tehran Amulinin diliylə bizi hədəf götürərkən, bəlkə də elə bu nəticəni əldə etmək istəyirdi", deyə Elxan Şahinoğlu bildirib.

***İnam Hacıyev***

# Hamiləlikdə koronavirusa necə qalib gəlmək olar?

### Ekspertlər aydınlıq gətirdi



"Ümumiyyətlə, koronavirus həm hamilələrdə, həm də digər insanlarda çox risk yaradır və təbii ki, hamilələrdə bu risk ikiqatdır. Yəni, bətindəki körpənin də həyatını təhlükəyə atmış olur. İlk növbədə, koronavirusdan qorunmağın əsas şərtlərindən biri davamlı olaraq immun sistemimizi güclü etmək və immun sistemimizə zərər vuracaq bütün amillərdən uzaq durmaqdır". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova deyib.

Onun sözərinə görə, biz gündəlik sağlam qidalanmanı yerinə yetirməliyik: "Xüsusilə, hamiləlikdə zərərli qidalardan daha çox paketlənmiş məhsullardan uzaq durmaq lazımdır. Çünki, bunlar da immun sistemini aşağı salır, vaxtlı-vaxtında sağlam yuxu rejiminə əməl etmək lazımdır və eyni zamanda gündəlik fiziki aktivliyimiz önəmli olmalıdır".

"Mütləq şəkildə gündəlik olduğumuz məkanlarda daha çox gigiyena qaydalarına uyğun əllərimizi tez-tez yumalıyıq. Bəzən olur ki, uzun müddət evdən bayırda qaldıqda əllər yuyulmur, mütəmadi olaraq spirtlənir və bunun da tərəfdarı deyiləm. Əllərin yuyulması ən vacib şərtlərdən biridir. Yaxşı olar ki, xüsusilə bayırda olduqda mütəmadi olaraq əllərin təmiz şəkildə yuyulmasına diqqət edək. Çünki, əlimizlə davamlı olaraq ağzımız, burnumuz, gözümüzə toxunuruq və bu da yoluxmanın bir nömrəli səbəblərindən biridir".

"Yaxşı olar ki, qapalı məkandayıqsa, tez-tez təmiz hava ilə otağı havalandıraq. Ümumiyyətlə, mümkün olduqca tanımadığımız insanlarla təmasdan qaçmalıyıq. Vacib olmadıqca kütləvi tədbirlərdən uzaq durmaq lazımdır, çünki ən çox yoluxma kütləvi tədbir olan yerlərdə olur. Çünki, hər kəsin sağlıq durumu bilinmir və koronavirus sürətli yayıldığı üçün, ona görə mütləq şəkildə hamilələrin bu kimi tədbirlərdən uzaq durması sağlamlıq üçün daha yararlıdır. Daha sonra özlərinə aid əşyalar var ki, bu evin içində də ola bilər, məsələn, gigiyenik əşyalardır, bunu istifadə etdikləri qablardı, stəkanlardı, boşqab ola bilər, əl üz silən dəsmallardır ki, bunlardan mütləq şəkildə özləri istifadə etməlidir, ortaq istifadəyə yol verilməməlidir".

Məhsəti Hüseynova sözlərinə belə davam edib: "Mümkün olduqca hamiləlik dövründə uzaq səyahətlər olmasın və ən önəmli məsələlərdən biri də stress faktorudur. Ona görə yaxşı olar ki, neqativ, elmi əsası olmayan xəbərləri, ümumiyyətlə, şübhəli hesab etdiyiniz xəbərləri izləməməyiniz daha məsləhətlidir. Çünki, bu halda həqiqətən də psixologiyamızı korlamamış oluruq. Qidalanmamızda da daha çox həkimin yazdığı qida əlavələriniz varsa onu vaxtı-vaxtında qəbul etməliyik. Meyvə-tərəvəzimizi bol etməliyik, təzə bişirilmiş yeməklərə üstünlük verməк lazımdır və günlük qidamızı yaxşı olar ki, hər gün təxmini eyni saatlarda səhər, günorta, axşam yeməyi olaraq, qəbul edək ki, çünki orqanizmimiz standart çalışma mexanizminə malikdir, biz nə qədər rejimli edəriksə, yediklərimiz o qədər bizim orqanizmimizə faydalı olar və xüsusilə də hamiləlik dövründə gələcək körpəmizin sağlamlığı, özümüzün sağlamlığı üçün bu nüanslara diqqət etməyimiz daha vacibdir".

Məsələ ilə bağlı cərrah, mama-ginekoloq Ləman Əliyeva da öz fikirlərini qeyd edib: "Ümumiyyətlə Covid-19 və yaxud da digər infeksiyalardan qorunmaq üçün sosial məsafə gözlənilməlidir. Həmçinin əlləri də tez-tez yumaq lazımdır". "Apteklərdə xüsusi mazlar var ki, burunun qarşısına vuralaraq infeksiyalara qarşı mübarizə aparır. Virusdan qorunmaq üçün bu da çox faydalıdır".

"Qeyd edim ki, bir maskanı ikinci dəfə istifadə etmək düzgün deyil. Ətraf-mühitdəki əşyalara çox toxunmaq da virusa yoluxmağa səbəb olur. Çalışıb həkim məsləhəti ilə vitamin qəbul etsinlər. Bu onlar üçün çox faydalı olacaq. Yəni, immunitetləri yüksələcək". "Həmçinin burada qidalanmanın da böyük önəmi var. Lazım olan qədər meyvə, ət, tərəvəz, süd məhsulları da virusun bir nömrəli düşmənidir".

***Ayşən Vəli***

# "Paşinyan dialoq təklif edib arxadan təxribatlar törədir" - EKSPERT AÇIQLADI

**"Ermənistanın baş naziri Nikol Paşinyan Ermənistanın regional kommunikasiyaların açılmasında maraqlı olduğunu bildirib. Xüsusilə də, Azərbaycan və Türkiyə ilə əlaqələrin qurulması, dialoqların ən yüksək səviyyədə təşkil olunması və davamlı xarakter alması, Azərbaycan və Ermənistan, Türkiyə və Ermənistan arasındakı anlaşılmazlıqların, problemlərin aradan qaldırılması ilə bağlı çıxış edib. Hesab edirəm ki, burada Paşinyanın bir neçə hədəfləri və məqsədləri var". Bu sözləri SİA-ya açıqlamasında beynəlxalq ekspert Anar Əliyev deyib.**

Onun sözlərinə görə, birincisi, Paşinyan ermənidir və biz erməni riyakarlığını, erməni yalanlarını unutmamalıyıq: "Bu, növbəti dəfə Paşinyanın dialoq təklif edib, arxadan da təxribatlar törətməyinin izahlarından biridir. Hesab edirəm ki, Azərbaycan dövləti, Azərbaycan cəmiyyəti olaraq Paşinyana və ümumiyyətlə, Ermənistanın cəmiyyətinə axıra qədər inanmaq olmaz. Mümkün qədər ehtiyatlı olmalı və ermənilərlə davranışda diqqəti əldən verməməliyik. İkincisi, Paşinyanın və Ermənistanın düşdüyü vəziyyəti dərk etməsi və çıxış yolunu yalnız Azərbaycan və Türkiyə ilə əlaqələrinin qurulmasından keçdiyini bilməsi ilə bağlıdır. Paşinyan, əslində, çox gözəl dərk edir ki, Rusiya, İran və Qərbi Avropa dövlətləri ilə əlaqələr qurub, Azərbaycan və Türkiyə ilə konfratasiyanı davam etdirmək, yalnız Ermənistanın maraqlarına ziyandır. Bu, Ermənistanı növbəti böhranlara, problemlərə apara bilər. Ona görə də mümkün qədər Azərbaycan və Türkiyə ilə münasibətlərin daha çevik və sürətli şəkildə bərpa olunmasına çalışır".



Anar Əliyev həmçinin qeyd edib ki, üçüncüsü, bu addımlar Paşinyanın özünün və Ermənistanın növbəti dəfə bazarlığa çıxmaq cəhdidir: "Paşinyan Azərbaycan və Türkiyə ilə əlaqələrin qurulmasına hazırıq fikirlərini səsləndirməklə həm Qərbi Avropa havadarlarına, həm də Rusiya və İrana açıq mesaj ötürür, onlardan növbəti güzəştlər qoparmağa çalışır. Dördüncü, mühüm səbəb isə Paşinyanın münasibətlərin qurulmasına hazır olduğunu bildirməklə paralel şəkildə təxribatların davam etdirilməsində məqsədlərdən biri də Qərbi Avropa havadarlarını daim Qafqazı, Ermənistanı diqqətdə saxlamaq üçün bir şantaj variantıdır. Paşinyan bununla Qərbi Avropadakı, Amerikadakı erməni lobbi təşkilatlarını, diaspor qruplarını daim Ermənistanı diqqətdə saxlamaq və Ermənistana maliyyə yardımlarını dayandırmamaqla bağlı şantaj etmiş olur. Bununla o göstərmək istəyir ki, Azərbaycan-Türkiyə birliyi Qarabağ məsələsini, "Artsax" problemini birdəfəlik həll etməkdədir və sizlər daha aktiv olmalısınız.

Eyni zamanda, Ermənistanın bu prosesləri, bu addımları atması region xalqlarının, Cənubi Qafqaz dövlətlərinin maraqlarına xidmət edən, regiona davamlı sülhün gəlməsinə xidmət edən növbəti addımların atılacağını deməyə imkan verir. Bu davranışlar onu göstərir ki, tezliklə biz Azərbaycan və Türkiyənin birgə gərgin mübarizəsinin, - həm də tək Ermənistana qarşı deyil, bu layihənin açılmasına qarşı olan bir çox dövlətlərin, eləcə də İranın istəklərinə qarşı,- nəticəsi olaraq Zəngəzur dəhlizinin Ermənistan ərazisindən keçən hissəsində mühüm praktik, real davranışların şahidi ola biləcəyik. Bu davranışlar regionumuza sülh, barış gətirəcək".

***Arzu Qurbanzadə***

SİYASİ RAKURS

# Linn Treysi ABŞ-dakı separatçıların halına yansın!



***ABŞ-ın Ermənistandakı səfiri Linn Treysinin Azərbaycanın qələbəsi ilə başa çatan 44 günlük müharibənin uğurlarını kölgə altına salması cəhdi, eləcə də Qarabağın işğaldan azad olunması faktı üzərinə spekulyasiyalara yol verməsi, o cümlədən, erməni separatçı-quldur "quruluşuna" hansısa "statusun" verilməsi ətrafındakı vargəlləri, əslində, növbəti faktları ortaya çıxarmış olur. Bu faktların isə bilavasitə amerikalı səfirə aidiyyatı var desək, heç də yanılmarıq. Və əgər Linn Treysi, həqiqətən də, separatçıların kirli məqsədlərinin reallaşması yönündə canfəşanlıq göstərirsə, onların "statuslarının müəyyən olunması" istiqamətində, sözün əsl mənasında, zəhlə tökürsə - demək ki, ona bir sıra sualları da ünvanlamağın zamanı və yeridir.***

Daha doğrusu, Linn Treysi insan hüquq və azadlıqları barədə bir qədər "həssas" və "incə" qəlbə sahibdirsə, öz ölkəsində cərəyan edən proseslərə maraqlansa, daha yaxşı olardı. Misal üçün, ABŞ-ın bir sıra ştatlarının Vaşinqtondan müstəqillik tələb etmələri tələblərinin nəyə görə yerinə yetirilməməsi, ən azından ayrılmaq istəyən ştatlara üstün statusların verilməməsi kimi suallar açıq qalmaqdadır.

## Sözügedən prosesdə lokomotiv rolunu Texas ştatı oynayır

Elə isə keçək mətləbə. Linn Treysi Ermənistanda oturub Qarabağ ermənilərinin "statusları" ətrafında baş sındırmaqdansa, ölkəsinin Texas ştatından ayrılması tələbləri üzərində düşünsə daha yaxşı olmazdımı? Özü də qanuni qaydada!

ABŞ-dan ayrılmaq istəyən ştat sakinlərinin sözlərinə görə, onlar Müstəqillik bəyannaməsinin şərtlərinə uyğun hərəkət edirlər. Beləki, bəyannamədə bildirilir: "Ölkədə elə vəziyyət yarana bilər ki, xalqlardan biri təhlükəsizlik və xoşbəxtliyi naminə digər xalqla siyasi zəncirləri qırmasına icazə verilir".

Sözügedən prosesdə lokomotiv rolunu Texas ştatı oynayır. Hələ bir neçə il əvvəl ştatın 70 min vətəndaşı Ağ Evin rəsmi saytında yerləşdirilmiş petisiyaya səs verib. Növbəti sıralarda isə Luiziana, Florida, Alabama, Missisipi, Nyu-Jersi, Kentukki ştatları gəlir. Petisiyaya ümumilikdə 29 ştat qoşulmuşdu! Hələ onda ştat rəhbərləri məsələ ilə bağlı o zamankı prezident Barak Obamaya müraciət edərək, "Xahiş olunur ki, ştatlara ABŞ tərkibindən çıxmaq hüququ, ya da referendumun keçirilməsinə icazə verilsin" müraciəti edilmişdi.

Linn Treysi bu faktların fərqinə varırmı??? Niyə onların müstəqil olmaları üçün səs-küy qaldırmır, nəyə görə bu ştatlardakı xalqların statuslarını, hüquqlarını tanımaq üçün əl-ayağa düşmür??? Sərf eləmir??? Yeri gəlmişkən, sözügedən müraciətdə, həmçinin, qeyd olunmuşdu ki, 29 ştat ölkədə insanların şəxsi həyatına hakimiyyətin qeyri-adekvat addım atmasına, iqtisadi islahatların keçirilmədiyinə və ABŞ vətəndaşının hüquqlarının pozulduğuna görə ABŞ-dan ayrılmaq istəyir.

## Lakora Respublikası Vaşinqtondan ayrılmaq qərarında qalır!

Ancaq bu da son deyil... İndi də keçid edirik Lakota Respublikası adlandırılan və əsasən, ABŞ-ın köklü xalqı olan hinduların problemlərinə. Bu quruluş ABŞ-ın Şimali Dakota, Cənubi Dakota, Nebraska, Vayominq və Montana ştatlarında cəmləşən hinduların, hələlik, virtual olaraq elan etdikləri respublikadır. Lakota, əsasən, özünün antiamerika istiqamətindəki məşhurluğu ilə tanınır.

Lakota Respublikası 2007-ci ilin 17 dekabrında hindu fəalı Rassel Mins tərəfindən elan olunub və azadlıq hərəkatı kimi başladıb. Elan olunduğu zaman Lakota xalqı ilə ABŞ-ın federal hökuməti arasındakı razılaşmanın pozulduğu bəyan edilib. Üstəlik, 2007-ci ilin 17-19 dekabr tarixlərində Lakotanın Azalıq Nümayəndə heyəti ABŞ-dakı Çili, Boliviya, Venesuela və Cənubi Afrika səfirliklərinə müraciət edərək, müstəqilliyinin tanınmasını xahiş edib. Üstəlik, özünü Lakota Respublikasının vətəndaşı hesab edən şəxslərin ABŞ vətəndaşlığından, bütün vergilərdən azad olunduqları bildirilib.

Qeyd edək ki, bu ərazi ABŞ-ın ən aşağı yaşayış səviyyəsi olan hissəsidir. O cümlədən, Lakotada uşaq ölümlərinin sayı çox yüksəkdir - orta amerikalıların ölüm həddini 5 dəfə üstələyir, özü də anadan olan hər dördüncü uşaq həyatını itirir. İşsizlik və ağır həyat şəraiti nəticəsində faiz etibarı ilə yeniyetmələrin intihar halları çoxalıb, kütləvi alkoqolizm və narkotiklərdən istifadə müşahidə edilir. Pis həyat şəraitinə görə yoluxucu xəstəliklərin də sayı durmadan artır. ABŞ dövləti lakotalılara demək olar ki, əhəmiyyət vermir və bütün bunlar onların hüquqlarını pozur. Görünür, bu səbəblərə görə onlar ABŞ-dan ayrılmaq və müstəqil dövlət qurmaq fikrinə düşüblər.

ABŞ-ın Ermənistandakı səfiri Linn Treysi bunları bilmirmi? Əlbəttə ki, bilir və çox gözəl bilir! Onda nəyə görə lakotalıların hüquqları barədə düşünərək, onlara statusların verilməsi barədə səsini qaldırmır?

## ... Və Kaliforniya!

Növbə gəlib-çatır Kaliforniyaya. Bəli, məhz erməni lobbisinin xüsusi olaraq yerləşdiyi ABŞ-ın Kaliforniya ştatına!

Beləliklə, Kaliforniya müstəqillik hərəkatı, Kaliforniya əyalətinin Amerika Birləşmiş Ştatlarından ayrılması üçün bir hərəkatdır. Kaliforniya, ABŞ -ın ən çox əhalisi olan və eyni zamanda üçüncü ən böyük əyalətidir. Bu baxımdan, əyalətin bütün tarixi ərzində, onun ərazi bölgüsü və yeni dövlətlərin yaradılması üçün 220 -dən




çox təklif irəli sürülüb. Eyni zamanda, dövlətin ABŞ-dan ayrılmasına dair 200 -dən çox tələb səsləndirilib. Bu gün Kaliforniyanın müstəqilliyi və ya bir hissəsinin ayrı bir müstəqil bölgəyə (məsələn, Kaskadiya) daxil olması üçün ayrı siyasi hərəkatlar da mövcuddur. ABŞ-ın Ermənistandakı səfiri Linn Treysi, görəsən, bu məlumatlardan xəbərdardırmı? Əlbəttə ki, xəbərdardır! Elə isə düşsün Ağ Evin üstünə və Kaliforniyanın müstəqil olması, ya da ona ayrıca statusun verilməsi üçün bəyanatlar səsləndirsin! Məgər demokratiya deyilmi? Buyursun, istifadə etsin beşiyində yatdığı demokratiyasından! Çünki 2016-2017-ci illərdə Kaliforniya sakinlərinin üçdə bir hissəsinə qədəri ABŞ-dan ayrılma ideyasına müsbət münasibət bildirdilər. Hal -hazırda Kaskadiya ərazisinin müstəqilliyi üçün əsas hərəkat Vankuver, Viktoriya, Sietl, Portland və digər şəhərlərdə üzvləri olan "Cascadian Independence Project"də birləşir.

**Yaxud, ABŞ-ın Ermənistandakı səfiri nəyə görə Texasa, Lakotaya, Kaliforniyaya statusların verilməsi və ya müstəqil ölkələrə çevrilmələri barədə fikirlər bildirmir?**



Linn Treysi "Bəli, Kaliforniya" təqdimatını da unutmamalıdır. Bu şüar 2016 -cı ilin noyabr ayında sosial mediada trend olan #Calexit hashtaqı ilə geniş populyarlıq qazandı. Məhz həmin vaxt bildirilirdi ki, Kaliforniya müstəqillik qazandığı təqdirdə, dünyanın 6-cı iqtisadi gücü ola biləcək.

Bu gün ABŞ-da Kaliforniya Milli Partiyası da fəaliyyət göstərir və 2014 -cü ildə təsis olunub. 2018 -ci ildən bəri partiyadan olan namizədlər həm yerli, həm də əyalət seçkilərində iştirak ediblər. Kaliforniya Milli Partiyası dövlətin (Kaliforniyanın) müstəqilliyini dinc yollarla, fəaliyyətinin isə uzunmüddətli hədəfi olaraq görür.

Nədənsə Linn Treysi hələ də yuxusundan ayılmadığını nümayiş etdirməklə öz ölkəsi daxilindəki bu kimi separatçı meyillər barədə düşünmür və Azərbaycanın beynəlxalq hüquqda tanınan sərhədlərinə qarşı dil uzadır. Amma yaxşı olardı ki, o diluzatmalarını yığışdırıb öz ölkəsinin daxili problemləri, ən yaxşı halda isə Ermənistandakı problemlər barədə düşünsün və Azərbaycanın Qarabağına tərəf, ümumiyyətlə, baxmasın!

***Rövşən RƏSULOV***

# Ermənistan niyə sülh danışıqlarına getmir? - DEPUTATDAN AÇIQLAMA



"Azəbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Şanlı Azərbaycan Ordusu 44 gün davam edən Vətən müharibəsində düşməni darmadağın edərək işğal altında olan torpaqlarımızı işğaldan azad etdi. Düşmən təslim aktına - 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata imza atdı. Artıq Bəyanatın imzalanmasından 10 aydan artıq vaxt keçib. Bu dövr ərzində Azərbaycan işğaldan azad olunmuş ərazilərinin bərpası ilə əlaqədar genişmiqyaslı tikinti-quruculuq işlərini həyata keçirir. Çox təssüflər olsun ki, Ermənistan tərəfi hələ də Azərbaycanın tarixi qələbəsi və öz acınacaqlı məğubiyyətləri ilə barışa bilmir". Bu sözləri SİA-ya açıqlamasında deputat Rauf Əliyev deyib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dəfələrlə öz çıxışlarında Ermənistan tərəfini sülh danışıqlarına dəvət edib: "Bu bəyanatlarda qeyd olunub ki, sülh sazişi bağlanmayınca bütünlükdə Cənubi Qafqazda sülhməramlı inkişaf və əməkdaşlıq baş tutmayacaq. Ermənistan hakimiyyəti sülh sazişinə dair danışıqlara başlamağa dair Azərbaycan tərəfinin çağırışlarına məhəl qoymur. Əksinə Azərbaycanın Ermənistanla mövcud olan dünya birliyi tərəfindən tanınan sərhədlərində təxribatlar törətməklə sülh danışıqlarından uzaq olduqlarını sübut edirlər. Ermənistanın rəsmi hakimiyyəti də daxil olmaqla bu ölkədəki bəzi qüvvələr artıq tarixin arxivinə göndərilmiş "status" məsələsini gündəmə gətirmək istəyirlər. Bu əhval-ruhiyə Ermənistanın öz əleyhinə işləyir. Hazırda Ermənistan dalandadır. Üçtərəfli bəyanatda nəzərdə tutulmuş kommunikasiya xətlərinin açılması birinci növbədə Ermənistanın xeyrinədir. Bu vəziyyətdən çıxmağın yeganə bir yolu var. O da tez bir zamanda Azərbaycanla sülh danışıqlarına başlamaq və sülh sazişini bağlamaqdır".

***Ayşən Vəli***

# Beynəlxalq tədbirlərin keçirilməsi üçün əlverişli məkan

*Astronavtika Konqresinin 2022-ci ildə Bakıda keçirilməsi ölkəmizin növbəti uğurudur*

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən, ideyalarını gerçəkləşdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasətinin məntiqi nəticəsi olaraq, ölkənin davamlı iqtisadi inkişafı təmin edilib, yerlərdə sosial-mədəni infrastruktur obyektləri yenidən qurulub, yeni istehsal, habelə, xidmət müəssisələri istifadəyə verilib. Azərbaycan beynəlxalq miqyaslı mötəbər yarışlara, qlobal forumlara, konfranslara, bir sözlə, nüfuzlu tədbirlərə ev sahibliyi edir. Eyni zamanda, bütün bu tədbirlər Azərbaycanın gücünü, potensialını və təşkilatçılıq qabiliyyətini bir daha nümayiş etdirir. Ölkəmizdəki uğurlu inkişaf, sabitlik, əmin-amanlıq beynəlxalq tədbirlərin keçirilməsində əlverişli məkandır. Uğurla inkişaf edən Azərbaycanda müasir dövrün çağırışlarına uyğun istiqamətində ardıcıl tədbirlər həyata keçirilir və bu davamlı xarekter daşıyır.




Azərbaycana göstərilən etimadın nəticəsi olaraq ölkəmiz Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edəcək. Konqresin Azərbaycanda keçirilməsinin qələbəmiz olduğunu vurğulayan Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, bizim çox güclü rəqiblərimiz var idi: "Dörd şəhər Konqresin keçirilməsi üçün səy göstərirdi. Bakı ilə yanaşı, Sinqapur, Rio-de-Janeyro və Dehli şəhərləri. Yəni, həm təcrübə, həm də əhali baxımından Hindistanla Braziliya Azərbaycanla müqayisəedilməz səviyyədədir. Ancaq bu mübarizədə qələbə əldə etməyimiz əlbəttə ki, bizim nüfuzumuzdan xəbər verir. Beynəlxalq astronavtika aləmi bu dörd şəhərdən məhz Bakını seçib. Bizə inanırlar, bizim siyasətimizə böyük dəstək göstərilir, Azərbaycanda gedən proseslərə dünya miqyasında böyük rəğbət var". Dövlət başçısı Astronavtika Konqresinin 2022-ci ildə Bakıda keçirilməsinin önəmli siyasi qələbə olduğunu bildirib. Altmış səkkiz ölkədən 398 üzvü birləşdirən Beynəlxalq Astronavtika Federasiyası dünyada texniki sahədə mövcud olan ən böyük qurumlardan biridir. Hələ Sovet İttifaqında ilk və yeganə Konqres Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Bakı şəhərində keçirilmişdir. Bu tədbirdən təxminən 6 ay sonra Azərbaycanın kosmik sənayesinin əsasları qoyulmuşdur. "Kaspi" Tədqiqat Mərkəzi yaradılmaqla, Azərbaycan mütəxəssisləri kosmik sahədə tədqiqatlara, kosmik cihazlar hazırlamağa başlamış, sonradan o cihazlardan "Salyut" və "Soyuz" kimi peyklərdə istifadə olunmuşdur. "2022-ci ildə - təxminən 50 ildən sonra müstəqil Azərbaycanda bu Konqresin keçirilməsi böyük rəmzi məna daşıyır", - deyən dövlət başçısı bildirib ki, o vaxt biz müstəqil deyildik, ancaq Sovet İttifaqında məhz Bakı Astronavtika Konqresinin məkanı kimi seçilmişdir: "Bu gün isə biz müstəqilik və müstəqil Azərbaycan bu böyük tədbirə ev sahibliyi edəcəkdir".

Bu gün Azərbaycan süni peyk layihələri ilə kosmik klubun aktiv üzvüdür. Cənubi Qafqazda ilk və yeganə peyk operatoru olan "Azərkosmos" telekommunikasiya və coğrafi kəşfiyyat sahələri üçün yüksək keyfiyyətli peyk xidmətləri təqdim edir.Azərbaycanda informasiya və kommunikasiya texnologiyalarının inkişafı sahəsində uğurların əldə olunması ölkəmizin azsaylı dövlətlərin təmsil olunduğu kosmik kluba üzv olmasına səbəb olub. Azərbaycanda bir çox sahələrdə olduğu kimi, kosmik sənayenin əsasları Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani təsdiqidir. 2010-cu ildə Prezident İlham Əliyev tərəfindən "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında Sərəncam imzalandı. Həmin quruma telekommunikasiya peykinin istehsalı və orbitə çıxarılması, əsas və ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzinin yaradılması ilə bağlı xüsusi tapşırıq verildi.

Bu gün Azərbaycan dünyada kosmik sənəayə ölkəsi olaraq öz töhfəsini verir və kosmik sənaye ölkəsi olaraq dünya dövlətlərinin diqqətindədir.Təbii ki, hər zaman olduğu kimi Azərbaycan bu dəfə də öz təcrübəsindən, təşkilatçılıq bacarığından yararlanaraq Beynəlxalq Astronavtika Konqresini ən yüksək səviyyədə təşkil edəcəkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Həyata keçirilən siyasət ciddi itkilərə səbəb oldu"

## *"ERMƏNİSTAN" BLOKUNUN İTTİHAMLARI*

**Son üç ildə Ermənistanda həyata keçirilən siyasət ciddi itkilərə səbəb olub. SİA xəbər verir ki, bunu "Ermənistan" bloku Ermənistanın müstəqilliyi gününün 30-cu ildönümü ilə əlaqədar olan mesajda bildirib. "Otuz il əvvəl, 21 sentyabr 1991-ci ildə Ermənistan vətəndaşları Müstəqilliyə "hə" dedilər. Millətin ən yüksək təşkilati formasını, müstəqil dövlətçiliyi qəbul etməyə razılıq verdilər, kimlik, sülh və yaradıcılıq yolunun milli birlik yolu ilə, təsvir edilə bilməyəcək çətinliklərlə, lakin sarsılmaz fədakarlıq və əzmlə keçiləcəyinə inanıldı.**



Dövlət quruculuğunda çatışmazlıqlar da var idi, lakin bunlar düzəldilə bilərdi və bunlar suveren dövlətçiliyi təhdid edə bilməzdi. Son üç ildə Ermənistanda aparılan siyasət isə ciddi itkilərə səbəb oldu. Vahid Ermənistan təhlükəsizlik sistemi pozuldu, Ermənistanın suverenliyi təhdid altındadır.

Bu gün, müstəqilliyin otuzuncu ildönümündə, bütün erməni xalqı, bir tərəfdən heç vaxt olmadığı qədər birliyə, iradəyə və ruha ehtiyac duyur. Birlikdə hadisələrin dağıdıcı gedişatını dayandırmaq tələb olunur", deyə mesajda bildirilir.

Göründüyü kimi, "Ermənistan" bloku işğalçı ölkədə aparılan siyasəti kəskin tənqid edib və bu siyasətlə barışmadığını açıq-aşkar bəyan edib. Ələlxüsus, görünür ki, artıq erməni xalqının da narazılığı gizlədilmir. Ermənistanın acınacaqlı durumda olduğu barədə etiraflar bir-birini əvəz edir və bu baxımdan da ittihamlar əbəs yerə deyil. Hazırda erməni cəmiyyəti Ermənistanın sözdə də olsa suverenliyinin, müstəqilliyinin əldən gedəcəyindən ehtiyat edir, qorxur və ən azından böyük bir təhdid olduğuna əmindir.

***İnam Hacıyev***



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Bakı doğru istiqamətdədir:

## Tehran "narahat" olmasın!

**Azərbaycanın 44 günlük müharibədən sonra işğaldan azad etdiyi sərhədlərində sürətli bərpa işlərini aparması, yeni hərbi hissələrini və sərhəd zastavalarını qurması, habelə sərhədlərini ən müasir standartlara malik olan hərbi-texniki avadanlıqlarla təchiz etməsi, möhkəmləndirməsi təəssüf ki, cənublu qonşumuzu heç bir səbəb olmadan narahat edir. Səbəb olmadan dedikdə isə, Azərbaycan öz ərazilərinin mühafizəsini gücləndirir və bu da əlbəttə ki, Bakının suveren, müstəqil qərar qəbul etmək gücündə, ixtiyarında olması ilə yanaşı, həm də birmənalı hüququdur!**

Halbuki, İranla sərhədlərimizin 30 ilə yaxın dövr ərzində nəzarətdən kənarda qalması həmin ərazilərin qanunsuz tranzitə çevrilməsinə münbit şərait yaratmışdı. O cümlədən, narkotik və s.qaçaqmalçılığın da çiçəklənməsi də, məhz bu dövrlərə aid edilə bilər. Onu da xatırlatsaq ki, İrandan işğal olunmuş ərazilərimizə kütləvi yük maşınları hərəkət edirdi və buna görə heç bir rüsum ödənilmirdi-onda həmin vaxtlarda nəyin-necə olduğunu təsəvvürə gətirmək belə insanı dəhşətə gətirir. Artıq heç nə əvvəlki kimi deyil və bundan sonra heç vaxt əvvəlki kimi olmayacaq da. Azərbaycan sərhədçisi sərhədlərimizi digər sərhəd məntəqələrində olduğu kimi göz bəbəyi kimi qorumaqdadır!

Bu arada, Tehran İrana tətbiq olunan beynəlxalq sanksiyaların qarşısını almaq üçün artıq çoxdandır ki, Ermənistandan öz məqsədləri üçün istifadə edir və bir sıra hallarda çoxsaylı qanunsuzluqlar da mövcuddur. Təkcə son vaxtlar Laçın dəhlizində baş verənlər və buna cavab olaraq Azərbaycanın Gorus-Qafaz yolu üzərində tətbiq etdiyi qayda-qanunlar da deyilənlərə sübutdur.

Tehran onu da yaxşı xatırlayır ki, bir müddət əvvəl ölkəmizin Astara gömrük-keçid məntəqəsində Rusiya Federasiyasının hərbi sənaye şirkəti tərəfindən İran İslam Respublikasına "dəmir məmulatı" adı altında göndərilən polad məhsulu, əslində, raket istehsalında istifadə edilməkdədir və hərbi-strateji əhəmiyyət daşıyır.

Necə deyərlər, belə olan halda Tehranın əsəb sarsıntıları keçirməsinə səbəblər var. Xüsusilə, Gorus-Qafan yolu üzərindəki Qubadlı sərhəd-keçid məntəqəsində azərbaycanlı sərhədçilərin həssaslıqlarını, diqqətlərini artırması, ayıq-sayıqlığı, eləcə də gömrük-rüsum qaydalarının tətbiqi İran tərəfini özlərinin də dedikləri kimi "narahat" edir.

Misal üçün, İran sürücülərinin sözügedən yolda ilişib-qalmaları günlərində İran İslam Respublikasının Bakıdakı səfirliyində Tehranın Bakıda fəaliyyət göstərmiş keçmiş səfiri Mohsen Pak Ayinin məqaləsi çıxmışdı. Müəllif məqaləsində Azərbaycanla İran arasındakı ikitərəfli münasibətlərin parlaq nümunələrindən yazıb və sözün səl mənasında, araya gerçək məqsədlərini yerləşdirib.

Məsələn: "Bəzi transregional oyunçular etnomərkəzçilərdirlər və onlara bağlı olan KİV-lər son həftələrdə iki ölkə arasındakı münasibətlərdə anlaşılmazlıq yaratmağa cəhd göstərirlər", deyə sabiq səfir sözügedən yazısında qeyd edib.

Lakin gəlin keçmiş səfirin digər yanaşmasına diqqət edək: o, bir tərəfdən "möhtəşəm ikitərəfli münasibətlərdən" və bu münasibətləri pozmaq istəyən hansısa "etnomərkəzçilərdən" və onlara bağlı olan "KİV"lərdən dəm vurarkən, başqa tərəfdən Qarabağda, yəni Laçın dəhlizindən qanunsuz keçən, hətta dövlət qeydiyyat nişanlarını Ermənistan nömrələrinə dəyişən (!!!) iritonnajlı yük avtomobillərinin olmadığını iddia edir (?!). Bu da azmış kimi, Azərbaycan KİV-lərini "yoxlanılmamış informasiyaları" yaymamağa çağırır (??!!)

Maraqlıdır, burada hansı fakt, hansı informasiya yoxlanılmayıb? Eks-səfir İrandan qanunsuz yollarla Qarabağa göndərilən və üzərində "Stepanakert, Armenia" yazılan qaimələrimi, yüksək keyfiyyətlə yazılan videogörüntülərimi nəzərdə tutur?

Və ya yaxşı olmazdımı ki, İranın Azərbaycandakı sabiq səfiri baş verənlərə görə tamamilə fərqli bir məqalə yazıb, təəssüf hissini bildirərdi, bununla da əsl diplomat olduğunu sübuta yetirərdi..?

Belə olan yerdə hətta ən adi ekspertlərə də aydın olur ki, İran əslində beynəlxalq sanksiyalara uğradığı bir zamanda Azərbaycanla münasibətlərinə xələl vurmamalıdır, əks halda daha ağır iqtisadi seyt-notlara düşə bilər. Yəni bənzər oyunlar heç də Tehrana başucalığı gətirmir.

Yeri gəlmişkən, ötənilki 44 günlük müharibə sübut etdi ki, Azərbaycan heç də hər hansı tərəflərin dişlərinə bata biləcək dövlət deyil və onu "yumşaq hədəf" kimi görmək sadəcə siyasi ağılsızlıqdır. Bu gün Tehran Azərbaycanla sərhədlərində hərbi təlimlər keçirə bilər və bu da onun öz daxili işidir, amma bu təlimlərini "əzələ nümayişi" və yaxud "diş qıcıtmaq" kimi göstərməyə cəhd edirsə, bu məsələdə də kökündən yanılır. Çünki Azərbaycan güclü olması ilə yanaşı, həm də tək deyil. Təkcə, son dövrlərdə keçirilən "Azərbaycan-Türkiyə", eləcə də "Azərbaycan-Türkiyə-Pakistan" arasındakı sarsılmaz və qürurverici hərbi təlimlər özü-özlüyündə hər bir faktları yetərincə ortaya qoymaqdadır. Üstəlik, hərbi strateji müttəfiqləri ilə yanaşı, Azərbaycanın bəlkə də İranın xoşuna getməyən (bu da onun öz işidir) dövlətlərlə də mövcud olan dostluq, strateji əməkdaşlıq və hərbi partnyorluq münasibətlərini də buraya əlavə edərsək, demək ki, Bakı doğru istiqamətdədir və onun yolunu heç kim, heç vaxt, heç yerdə kəsə bilməz!

# "İranın tutduğu mövqe təəssüf doğurur"



Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov SİA-ya müsahibə verib. Həmin müsahibəni sizə təqdim edirik:

*- Son zamanlar sosial şəbəkələrdə, xəbər saytlarında müzakirələr gedir. İran tərəfindən Azərbaycana qarşı təhdid xarakterli çıxışlar edilir. Hətta İran Araz boyu sərhəddə hərbi təlimlərə başlayıb. Bütün bunlar Gorus-Qafan ərazisində Azərbaycanın polis postu qurmasından sonra baş verdi. İran sanki etiraz əlaməti olaraq bunlara əl atır. Sizcə, bu İranı niyə narahat edir?*

- Təbii ki, İranın tutduğu mövqe təəssüf doğurur. İran bizim böyük qonşumuzdur. Müstəqilliyimizin ilk illərində çox yaxşı əlaqələrimiz olub. Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərindən biridir. Qarabağ döyüşləri başlayanda İran aktiv şəkildə bizə kömək edib. Onun generalları burada olub. Sonrakı dövrdə Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra qaçqınların, köçkünlərin problemlərinin həllində bizə çox böyük kömək etdi. Təqribən yüz minlik çadır şəhərciyi qurdu. Düzdür, çalışdılar müəyyən qədər dini təbliğat da aparsınlar. O dövrdə Ulu öndər Heydər Əliyev bunun qarşısını almaq üçün ciddi tədbirlər gördü. Amma etiraf etmək lazımdır ki, İran o dövrdə həm Naxçıvana, həm də bizə kömək etdi. Amma təəssüflər olsun ki, son zamanlar İran özünəlayiq böyük dövlət kimi aparmır. Açıq-aşkar qanunu pozmaq, beynəlxalq hüquqa etinasızlıq nümayiş etdirir. Gorus-Qafan yolunun 21 kilometri Azərbaycana aiddir. Bu bizim haqqımızdır ki, oradan keçən maşınları yoxlayaq, gömrük rüsumu alaq, torpaq vergisi alaq. Bizə deyirlər ki, ermənilərə ödəmişik, indi sizə nəsə ödəməliyik. Bir dəfə ödəmək fikriniz varsa, onlara verməyin də ermənilərə nəsə vermisiz onun bizə nə əlaqəsi var. Üstəlik dəfələrlə, xəbərdarlıq edilməsinə baxmayaraq keçmiş Dağlıq Qarabağ ərazisinə İran tırlarını müəyyən qazanc əldə etmək üçün getməsi faktı var. Hələlik görünür İran qazanc üçün bu hərəkətlərə əl atır. Çünki burada başqa heç nə edə bilməzlər çünki rus sülhməramlıları buradadır. Ruslar burada tamamilə vəziyyətə nəzarət edir. Hə, ola bilər ki, İran burada silah alveri də edə bilər. Ancaq İranın burada əsas məsələsi qazanc məsələsidir. Dəfələrlə, Azərbaycan Prezidenti işarə etdi. Dedi ki, başqa ölkələrin maşınları daxil olur, erməni nömrələri qoyulur. Ancaq bunu eşitmədilər, nəticə çıxarmadılar. Axırda məcbur olduq ki, rəsmi şəkildə nota verək ondan sonra da hələ ki münasibətlərin yaxşılaşması üçün heç bir addımlar atmadılar. İndi sərhəddə təlimlər keçirlər. Azərbaycana güc nümayiş etdirməyə çalışırlar. Hansı ki, bu əhəmiyyətsiz bir şeydir. Sonra dini liderin Ərdəbil üzrə rəhbəri yöndəmsiz bir bəyanat verib. Guya hansısa millət vəkili türk mətbuatına müsahibə verib və İran yer üzündən silinəcək deyib. Yəni İranın belə qeyri-ciddi addımlar atması ona xeyir verməyəcək. Azərbaycan 90-cı illərin Azərbaycanı deyil. Azərbaycanın kifayət qədər güclü müttəfiqləri var. İran Azərbaycan və onun müttəfiqləri ilə yaxşı əlaqələr qurmalıdır. Bu daha yaxşı olacaq.







*- İran yenə də Gorus-Qafan ərazisinin Azərbaycana daxil olmayan ərazisindən yük daşımağa davam edir. Lakin bu aşırımlı yoldan istifadə etməkdənsə, Azərbaycan tərəfindən keçmək daha ucuz başa gəlir. Amma İran tərəfi Azərbaycan tərəfinin düz yolu ilə getmək əvəzinə Ermənistan tərəfinin kələ-kötürlü yolu ilə gedir. Bu da sual yaradır, İran tərəfi yaqin istəmir ki, nə daşındığını Azərbaycan bilsin. Bu barədə nə düşünürsüz?*

- Özlərini təhlükələrə atmaq hesabına, daha artıq xərc çəkmək hesabına bu yolu seçirlər. Təbii ki, bu çox ciddi şübhələr doğurur. Bu şübhələr yaranmaya bilməz. Belə baxanda Azərbaycan nümayəndələri yoxlayırlar və buraxırlar. Sən niyə əyri yollar axtarırsan. Ən əsası ermənilər də deyirlər ki, bəyanatda yazılıb ki, Azərbaycan nəqliyyat vasitələrinin və yüklərin təhlükəsizliyinə təminat verib. Təbii təminat verib. Söhbət Ermənistandan və Qarabağdan gedir. Üçüncü kənar bir dövlətdən söhbət getmir. Bununla İranın heç bir əlaqəsi yoxdur. İran buradan Azərbaycanın icazəsi olmadan maşınlar daxil etməməlidir. Bu aydın bir məsələdir. Bunu dəfələrlə, dönüb-dönüb təkrar etməyə ehtiyac yoxdur. Mən hesab edirəm ki, İran bu yolu tutmamalıdır. Bu yolun ona heç bir xeyri yoxdur.

*- İranla münasibətlərə yenidən baxmağa ehtiyac varmı?*

- Bunu dəfələrlə, Prezident də deyib, İran bizim dostumuzdur, İran bizim qonşumuzdur. Biz İranla əlaqələrin yaxşı olmasında, əlbəttə, maraqlıyıq. Bəzən bəzi məsələlərdə İrana qarşı bizdə də ciddi etiraz yaranır. Ancaq biz bu məsələləri çox da böyütməməliyik. Nə İran böyütməməlidi, nə biz böyütməməliyik. Təbii ki, bu ermənilərin xeyrinədir. Ermənilərin maraqlarına cavab verir ki, bizim həm İranla problemimiz olsun, həm də Rusiya ilə problemimiz olsun. O da bundan istifadə edib, özü üçün əlverişli nəticə yaratsın. Biz bu məsələləri də yadda saxlamalıyıq. Mən hesab edirəm ki, qısa zamanda İranla olan məsələlərin hamısı həll olunacaq.

*- Paşinyan Gürcüstanda səfərdə olanda bir neçə saatlığına Batumidə yoxa çıxıb. Bəzi politoloqlar iddia edir ki, bu zaman Paşinyan Türkiyə və ya Azərbaycan rəsmiləri ilə görüşüb və sülh danışıqları haqda danışıq aparıb. Bəzi politoloqlar isə qeyd edir ki, bu Paşinyanın oyunudur, özünü sülhpərvər kimi göstərməyə çalışır. Siz bu barədə nə düşünürsüz?*

- Tamamilə mümkündür ki, gizli danışıqlar olub. Amma bu danışıqlar hansısa nəticəyə xüsusilə də, sülhə gətirib çıxara bilərmi? Mən buna açığı inanmıram. Mən ümumiyyətlə, birbaşa danışıqların da nəticə verəcəyinə inanmıram. Azərbaycan-Ermənistan liderlərinin birbaşa danışıqlarının da nəticə verəcəyinə inanmıram. Türkiyə vasitəçiliyi olsa necə? Türkiyənin də vasitəçiliyini Ermənistan tərəfi qəbul etməz. Türkiyənin vasitəçiliyi yalnız 10 noyabrda olduğu kimi ola bilər. Əsas ortada olan Rusiyadı amma Türkiyə də aktiv şəkildə iştirak etdi. Eyni proseslər mən hesab edirəm ki, getməlidir. İnşaallah ki gedər. Paşinyan Ərdoğanla görüşmək istəyir. Niyə? Təbii ki, burada erməni məkri də var. Yəni Azərbaycan ilə Türkiyə arasında fərqli bir fikir yarada bilərəmmi, deyə düşünür. Nəyi vəd etmək olar ki, Türkiyə Azərbaycanın mövqeyindən biraz aralansın. Bəzi məsələlərdə Azərbaycana təsir etsin. Təbii ki, bunun heç bir nəticəsi olmayacaq.

***Turqay Musayev***






## Eduarddan tənə, Arturdan məsləhət, Armandan tövsiyə...

**...Lap elə belə də deyir ey... Deyir ki, guya Nikol hakimiyyətə gəlməmişdən əvvəl Ermənistan Uatalı-analıF, daha nə bilim Uqollu budaqlıF imiş. Yəni Nikola qədər ermənilər hələ öz ölkələrində belə UqaF deyəndə onlara nəvazişlə ət, UquF deyəndə isə başqa bir nəvazişlə su gətirirmişlər.**

Amma Nikol gəlib Ermənistanı yetim gününə qoydu. İndi də qalmışıq pis günə, ölkədə heç kim özünü təhlükəsiz hiss etmir. Elə bil tikan üstündə oturublar. Nikol hakimiyyətə gəlib nə çətinliklə əldə etdiyimiz UsuverenliyimiziF demək olar ki, tamamilə ayaqlar altına atdı. UMəğlubedilməz erməni ordusunuF bir dəyər olaraq məhv etdi və indi təslim olan rejimin lideri Ərdoğanla görüşmək istəyir, sülh üçün ona yalvarır, yatmazdan əvvəl dualar edir.

Deyim ki, bunu, Ermənistan Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov şəxsi UFacebookF səhifəsində yazıb. Yeri gəlmişkən onu da deyim ki, əslində, elə Şarmazanov da bəzi Usatqın ermənilər kimiF Ermənistandakı son yaşantılara UbiganəF qala, yəni olanlara hər bir münasibət göstərə bilərdi.

Amma yox....onda Uvətən sevgisiF ilə yanaşı, Serjik Sarkisyanın yenidən hakimiyyətə qayıtmaq ehtimalı hələ qalıb. Nə bilmək olar...

Qeyd edək ki, Paşinyanın Türkiyədən barış üçün yalvarmaq cəhdlərini Şarmazanov Nikolun öz kreslosunu qoruyub saxlamağa hesablandığını bildirir.

...Sabiq Serjikin sabiq mətbuat katibinin fikrincə, bu gün Paşinyan erməni xalqına xas olmayan siyasi dilənçiliklə məşğuldur. Guya o, hakimiyyətini qorumaq üçün hər oyunlara getməyə hazırdır. Şarmazanova görə, Nikol hakimiyyətinin Utürk oyunlarıF erməni faktorunun tamamilə məhvinə səbəb olacaq. Milli ideyaları olmayan bir dövlət isə artıq dövlət ola bilməz.

...Burada Eduarddan soruşan gərək: hec yeridir? Bu dəqiqə ermənilər İrəvan küçələrinə yığışıb UşadyanalıqF edir, bu da bu yandan başlayıb Ubədbin-bədbinF danışmağa...

Bax, gör, köhnə UqeqebeşnikF Artur Vanetsyan nə deyir? Deyir ki, bu gün, bayram günü, biz Umüstəqil və qürurlu bir ölkənin vətəndaşı olaraqF otuz dəfə səssizcə özümüzü yenidən kəşf edəcəyimizə söz verməliyik. Yəni, o demək istəyir ki, UkomaFda oturduğumuz yetər, ayılmaq lazımdır. Yoxsa, bu zəhirmar UkomaF vurub yeni xəstəliklərimizi də üzə çıxarar. Özünüz də, Uhumanist ermənilərinF bütün xəstəliklərə necə meyilli olduğunu yaxşı bilirsiniz. Doğru sözə, nə deyəsən?

...Amma deyim ki, Ermənistanın hüquq müdafiəçisi Arman Tatoyan Ermənistanın müstəqillik günü münasibətilə göndərdiyi mesaj o biriləri ilə müqayisədə daha humanist bir səpkidə yazılıb. İlk olaraq vətəni, xalqı uğrunda elə günü bu gün də canını fəda etməyə hazır olduğunu deyən Tatoyan bütün erməniləri onun kimi UmübarizF olmağa, yəni ümidsizlik və çarəsizliyə qapılmamağa çağırıb.

Deyim ki, onun sərhəd kəndlərinə gizlənə-gizlənə getməsi, təbii ki, bura şamil edilməməlidir...

***Ağasəf Babayev***

# Arif Hacılı, Qənimət Zahid və Ramin Hacılı Niderland hökumətinin hədəfində!

**Müxalifətin radikal kəsiminin fəaliyyət göstərdiyi bütün dövrlərdə onların yalnız Azərbaycanın dövlətçilik maraqlarına qarşı deyil, həm də digər əməllərinə qarşı ifşaedici informasiyalar çoxsaylı sübutlarla və faktlarla ictimai rəyin diqqətinə çatdırılıb. Xüsusilə, sözügedən kəsimin, məhz saxtakarlıq yolları ilə siyasi mühacir biznesləri ətrafındakı bir sıra dələduzluqları mövcuddur ki, bu haqda da KİV-lərdə yazılıb.**

Bu arada o da məlum olub ki, özlərini radikal müxalifətin aparıcı qüvvələri hesab edən sözdə "siyasi fəal" Ramin Hacılının, AXCP təmsilçisi Qənimət Zahidin, Müsavat başqanı Arif Hacılının və "Müsavat" - Avropa koordinasiya mərkəzinin adları Niderlandın xarici işlər nazirliyində hazırlanmış 99 səhifəlik rəsmi sənəddə keçir. Daha dəqiq desək, onların saxtakarlıq və dələduzluq əməlləri artıq Niderland hökumətinin diqqətini cəlb edib.



əməlləri ifşa olunub. Həmin ifşalar "Şəxsiyyət, vətəndaşlıq və sənədlər" bölməsinin 2.1.4, 2.1.4.1-ci bölməsində qeyd edilib. "Saxta sənədlər" başlığı olan bölmənin 2.1.4.2-ci hissəsində isə dələduzluq əməllərinin sübutu yer alıb.

## 99 səhifəlik rəsmi sənəddə Müsavat və AXCP rəhbərliyi saxta sənəd və qanunsuz mühacir biznesində ittiham olunurlar





qanlarının saxta mühacir biznesi haqqında yazdıqları informasiyalar yer alır. Sənəddə bildirilir ki, 2015-ci ildən başlayaraq müxalifətçi Müsavat partiyasının üzvləri tərəfindən qanunsuz üzvlük vəsiqələri və tövsiyə və ya təqdimat məktubları hazırlanıb. Bu saxta sənədlərin hər biri imzalanıb.

### Müsavatla yanaşı, AXCP-nin də adı hallanır

Bundan başqa, xarici ölkələrdə sığınacaq almaq istəyənlərə Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) da saxta sənədlər verib. Lakin Müsavatla bağlı faktlar daha çoxdur. Belə ki, Niderland XİN-nin sənədində Müsavat partiyasının başqanı Arif Hacılının beş il ərzində 197 şəxsə saxta təqdimat məktubu verdiyi məlum olub.

Digər faktlar isə binlardır: 13 noyabr 2019-cu ildə alman polisi Kölndə, Frankfurtda və Düsseldorfda mövcud olan 13 evdə və ofisdə yoxlamalar apa-



### Yuxarıda adları çəkilən şəxslərin Azərbaycan vətəndaşlarına həm ölkə daxilində, həm də xaricdə saxta sənədlər düzəltmələri barədə əməlləri ifşa olunub

Qeyd edək ki, bir müddət əvvəl də ölkə mətbuatında informasiya yayılmışdı ki, Niderland XİN Azərbaycanla bağlı xüsusi hesabat sənədi hazırlayıb və sənəddə ölkəmizdəki siyasi, iqtisadi və sosial situasiya ilə yanaşı, həm də insan haqları haqqında ümumi informasiyalar yer alıb.

Lakin bəhs edilən məsələnin diqqət çəkən tərəflərindən biri də budur ki, hesabatda azərbaycanlı müxalifətçilərin "biznesləri" daha çox qabardılıb. Daha dəqiq desək, yuxarıda adları çəkilən şəxslərin Azərbaycan vətəndaşlarına həm ölkə daxilində, həm də xaricdə saxta sənədlər düzəltmələri barədə

### Niderland XİN-nin hesabatında xatırladılır ki, əldə edilən faktlar 2015-ci ildən toplanıb

Beləliklə, sözügedən hesabatda bildirilir ki, bu müxalifətçilər dələduzluqla məşğuldurlar və əsas işlərini miqrantlarla qururlar. Sənədə əsasən, əldə edilən faktlar 2015-ci ildən toplanıb. Niderland XİN-nin hesabatında xatırladılır ki, "Müsavat" Avropa gənclər hərəkatının lideri Ramin Hacılı bu məsələlərdə fəallığı ilə seçilib. Belə ki, onun qurduğu turizm agentliyi üzərindən Azərbaycanı 100 insan turist qismində tərk edib. Lakin əslində, Ramin Hacılı sonradan həmin şəxslərin xarici ölkədə qalmalarına digər saxtakarlıq üsulları ilə köməkliklər göstərib. Hesabatın 2.1.4.2-ci hissəsində "Sığınacaqla təmin etməklə bağlı dələduzluq" başlığı da mövcuddur. Bu bənddə yer alan informasiyada Azərbaycan KİV-lərinin və rəsmi dövlət or-

rıb və həmin yerlərdən partiya biletləri, təqdimat məktubları və möhür aşkarlanıb. Vurğulanır ki, bununla bağlı "Müsavat" Avropa koordinasiya mərkəzinin adı da keçir.

Sənəddə o da vurğulanır ki, Fransada yaşayan AXCP üzvü Qənimət Zahidin adı saxta sənədlərin hazırlanmasında və qanunsuz miqrant biznesində hallanır. Həmin sənədin orijinalı ilə aşağıdakı linkdən tanış ola bilərsiniz.

https://www.rijksoverheid.nl/binaries/rijksoverheid/documenten/ambtsberichten/2021/09/14/algemeen-ambtsbericht-azerbeidzjan-van-september-2021/Algemeen+ambtsbericht+Azerbeidzjan+2021-09.pdf

***Rövşən RƏSULOV***

MÜXALİFƏT+İFŞA

# "Müsavat və AXCP-dən istefalar genişlənə bilər"

**"Müsavat və AXCP-dən sıravi partiya üzvlərinin istefalarının sayının artması bu partiya rəhbərliyinin yanlış siyasət aparmaları ilə bağlıdır. Vaxtı ilə sözügedən partiya rəhbərləri özlərinin yalan vədləri ilə bəzi gəncləri bu partiyalara üzv etdilər. Həmin şəxslər isə zaman keçdikcə reallığı öz gözləri ilə görürlər ki, bu partiyalarda hər hansı bir irəliləyişdən və inkişafdan söhbət gedə bilməz və buna görə də, o partiyaları tərk etmək qərarına gəlirlər". Bunu Təkamül partiyasının sədri Teyyub Qənioğlu "Səs" qəzetinə açıqlamasında bildirib.**

Onun sözlərinə görə, həmin gənclər müqayisə edirlər və görürlər ki, doğrudan da Müsavat və AXCP rəhbərliyində təmsil olunanların mövqelərində yanlışlıq var: "Yəni onların fəaliyyətlərində milli dövlətçilik mənafeyindən kənara çıxma halları var və belə olan halda da, istefa verirlər. Ümumiyyətlə, partiyaya gələndə insanlar iki şeyi üstün tuturlar. Birincisi, partiyanın tutduğu mövqe, yəni onun ideoloji mövqeyi. İkincisi isə, o partiyada perspektivi".

## Partiya sədri münasibət bildirdi



T.Qənioğlu onu da bildirdi ki, ölkədə demokratiyadan danışan həmin radikal müxalifət partiyaları öz partiyaları daxilində demokratiyanı yarada bilmirlər: "Ölkənin bütövlüyündən, suverenliyindən danışan şəxslər öz bütövlüyünü qoruyub saxlaya bilmirlər. İnsan haqlarından danışanlar öz partiyaları daxilindəki, sıravi üzvlərinin hüquqlarını qoruya bilmirlər. Belə halda həmin partiyalar daxilində istefaların olması normal bir haldır".

***Gülyana***



**Təhmasib Novruzov**

# İran niyə qıdıxlanır?

**Bilirəm, bizim məmləkətdə hələ də farsların insanları kölə etmək məqsədilə formalaşdırdığı islam xurafatının təsiri altında uyuyan manqurtlar var. Nə yazıqlar ki, Mirzə Fətəli Axundovdan üzü bəri, nə az, nə çox düz yüz əlli ildir bu millətin ağıllı adamlarının yazdıqları da bəzilərinə təsir etmir ki, etmir. Hələ də məşhur Danabaş kəndinin camaatı olmaqdan qurtulmaq istəmirlər deyəsən. Ədalət naminə deməyi özümə borc bilirəm ki, lənətlənmiş kommunist rejiminin bizlərin həm mənəviyyatına, həm tarixinə, həm də iqtisadiyyatına vurduğu zərbələrə rəğmən tək bir məsələdə millətimizə xeyiri dəyib.**

O da ibarətdir ondan ki, xurafatçılıqdan, islamın bətnində qara yara olan təriqət düşmənçiliyindən xilas olmuşuq. Amma müstəqilliyimizin ilk illərindəncə İranın bəzi xurafatçı kəsimləri arazın bu tayında milləti yenidən xurafatçılığa necə meyllləndirdisə, xeyli sayda zavallı kəslərimizi təsirləri altına sala bildilər. Bir-iki gün öncə Ərdəbildəki ayətullah dini rütbəsi daşıyan, Azərbaycan soylu axundun başından yekə qələti ilə bağlı bir-iki kəlmə cızma-qara eləyib göndərmişdim mətbuata. Yazı sia.az saytında dərc ediləndən iki-üç saat keçmişdi ki, zənglər başladı.

Sevindim ki, zənglərin əksəriyyəti mənim fikirlərimlə razılaşır və mənə dəstək verir. Cümşüd Nuriyev kimi, Yunus Oğuz kimi, Aydın Xan Əbilov kimi dəyərli ziyalılarımızın yazı ilə bağlı müsbət fikirlərindən qarpızlanmışdım ki, bir qohumum zəng elədi. Nömrəsini görən kimi dalağım sancdı. Çünki onunla bir-iki dəfə xurafatçılıqla bağlı mübahisələrim olmuşdu və Fazil Lənkaraninin islam peyğəmbərini aşağılayan kitabını dönə-dönə oxuyan bu xurafatçı qohuma nə deyirdimsə, takkıldayıb qayıdırdı özümə. Bildim ki, yazının sorağı gedib bu qohumbalaya da çatıb və özümü əməlli-başlı yığışdırıb telefonu açdım.

Nə və ya nələr danışdığımızı yazsam, gərək bir kitab bağlayam. Bilirəm ki, kitab oxumağa da sizin hövsələniz çatmayacaq. Amma tək bir məqamı istədim sizlərlə bölüşüm, əziz oxucu! Məqam da ibarətdir ondan ki, xeyli mübahisədən sonra birtəhər bu qohumbalanı kiridib bir sual verdim: "Sən əvvəl türksən sonra müsəlman, yoxsa əvvəl müsəlmansan, sonra türk?" Cavabını da olduğu kimi yazıram: "Əvvəla mən türk döyüləm, azərbaycanlıyam(?). İkninci, hər bir insanı allah yaradıb. Allahtaala Həzrəti Adəmi torpaqdan yaradanda onu nə türk, nə azərbaycanlı, nə rus, nə fars yaratmışdı. Hamını allah yaradıb və hamımız ilk olaraq müsəlmanıq, sonra türk, azərbaycanlı, rus, fars." İnsafən çox fəlsəfi və məntiqi cavab idi, deyilmi? Amma mənim verdiyim uzun-uzadı "onda niyə yəhudilər xristianlarla, xristianlar müsəlmanlarla, həm də yəhudilərlə dini ixtilafdadırlar? Hələ təriqətlərin düşmənçiliklərindən danışmıram. Axı islam dini yeddinci əsrdə yaranıb. Ona kimi bizim bəzilərimiz atəşpərəstidik, bəzilərimiz iudist, xristian və s. Demək biz müsəlman olmazdan əvvəl türk olmuşuq, eyni dildə danışan bir xalq olmuşuq.

Bu gün fars şovinistləri din pərdəsi altında özlərinin xurafatçı milli ideyalarını yayırlar bu ölkədə. Bunu başa düşmürsünüzmü?" suala cavab verə bilməyib, telefonu söndürməyə məcbur oldu. Bunu yazıb niyə vaxtınızı aldığımı da deyib, yazıma son verəcəm. Əminəm ki, hər birimizin yaxşı tanıdığımız qohumlar, qonşular, dostlar, tanışlar arasında mənim bu zavallı qohumum kimiləri var. Biz nə qədər İrana dostluq əli uzatsaq da, görünən odur ki, fars şovinistləri onları gözləyən gələcək təhlükələrin, haqqın yerini alacağının fəqrindədilər və Azərbaycanın ideoloji həyatına birbaşa soxulmaqdadırlar.

Bəlkə də çoxdan soxulublar. Odur ki, bizi gözləyən gələcək təhlükələrdən sığortalanmağın bir yolu var, belə adamların həqiqəti anlamalarına, özləri ilə bərabər başqalarını da bu manqurtlaşma yoluna sürükləmələrinə mane olmağa tələsək. Sadəcə, İslam dövləti adlanan, İslam bayrağını göylərə qaldırdığını iddia edən bir ölkənin başbilənləri müsəlman uşaqları, qadınları, günahsız müsəlman əhalini qətlə yetirən, müsəlman məscidlərini dağıdan, allah evində donuz saxlayan, müsəlman qəbristanlıqlarını dağıdıb yerində taxıl əkən bir topluma bu qədər qucaq açıb, ona qardaş deyir, qol-boyun olursa, onun özünü müsəlman adlandırmağa mənəvi haqqının olub-olmaması sualına bu manqurtlar cavab verə bilirlərsə versinlər, sonra digər məsələrdən danışarıq.

# Azərbaycan polisinin narkotik müharibəsi: Qələbə yaxındadır!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

***Məlum olduğu kimi, son dövrlərdə qlobal narkomafiya ənənəvi narkotiklərlə yanaşı, yeni süni kimyəvi narkotiklərin də ucuz qiymətə yayılmasını təşkil edir. Ölkəmizdə də, gənclər arasında belə qorxunc narkotik və psixotrop maddələrin yayılması milli genefondumuza ağır zərbələr vurur. Bu səbəbdən hüquq-mühahizə orqanları, xüsusən, DİN bu hallara qarşı mübarizəni gücləndirib.***

Qeyd etmək lazımdır ki, görülən tədbirlər son dərəcə peşəkarlıqla və effektiv şəkildə həyata keçirilib və çox ciddi nəticə verib. Demək olar ki, ölkədə narkomafiyanın, narkotacirlərin fəaliyyəti minimumadək endirilib. Bununla belə, mütamadi olaraq yeni narkoticarətçilər aşkar olunur, külli miqdarda təhlükəli narkotik maddələr müsadirə olunur. Demək, bu işi davam etdirmək və sona çatdırmaq əzmi var. Yazını hazırlayarkən yayımlanan son məlumatı da nəzərinə çatdırmaqla, bu mövzuda bəzi maraqlı məqamları qeyd etmək istəyirik.




### İnternetdə narkotik satan dəstə belə aşkar olundu

Daxili İşlər Nazirliyi tərəfindən təmassız, yəni onlayn yolla narkotik vasitə və psixotrop maddələrin sosial şəbəkələrdə satışı ilə məşğul olan, bu yolla əldə olunan külli miqdarda pul vəsaitlərinin qeyri-leqal yolla dövriyyəsinə nəzarət edən daha bir mütəşəkkil cinayətkar dəstənin üzvlərinin ifşa edilməsi istiqamətində növbəti əməliyyat-axtarış tədbiri keçirilib. Bu barədə SİA-ya ya DİN-in Mətbuat xidmətindən məlumat verilib.

Tədbir zamanı əvvəlcə Nazirliyin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən İnstaqram və digər sosial şəbəkələr vasitəsi ilə ölkə ərazisində narkotiklərin satışı ilə məşğul olan səhifələrin hərtərəfli monitorinqi aparılıb və əldə edilən məlumatlar təhlil edilib. Əməliyyat yolu ilə əldə olunan elektron sübutlar və digər materiallar araşdırılan zaman müəyyən olunub ki, İnstaqram sosial şəbəkəsində açılmış səhifələr vasitəsi ilə narkotik maddələr, əsasən "patı", "şüşə" adlanan metamfetamin və "kola", "kakos" adlanan heroinin satışı təşkil olunur. Həmin səhifələrdə müxtəlif banklara məxsus kartların şəkilləri "Vatsap" ani mesajlaşma tətbiqi ilə alıcılara göndərilir. Ölkə daxilində alıcılar həmin kartlara pul ödədikdən sonra narkotik vasitələr kuryerlər vasitəsi ilə onlara çatdırılır. İnstaqram sosial şəbəkəsində fəaliyyət göstərən çoxsaylı belə səhifələrin ünvanları dəqiqləşdirilib və Nazirliyin "Facebook" şirkəti ilə qarşılıqlı əməkdaşlıq fəaliyyəti çərçivəsində həmin səhifələrin xarici ölkələrdən idarə olunduğuna dair rəsmi cavab alınıb.

Araşdırma zamanı müəyyən edilib ki, narkoşəbəkəyə daxil olan şəxslər gizliliyi təmin etmək məqsədi ilə bir-birilərini tanımadan fəaliyyət göstərirlər və iki əsas hissəyə ayrılırlar. Şəbəkəyə daxil olan birinci dəstə əsasən narkotik vasitələrin istifadəçilərindən ibarət olmaqla xaricdəki narkotacirlər üçün ölkə ərazisində kuryerlik fəaliyyəti ilə məşğul olublar. Yəni, həmin narkotacirlərin Vatsap ani mesajlaşma sistemi vasitəsi ilə göndərdikləri ünvanlara narkotik maddələri çatdırıblar.





### "Bandotdel" 20 nəfərlik narkotacir şəbəkəsini aşkar etdi

İkinci dəstənin üzvləri isə narkotik vasitələrin satışından əldə edilən pul vəsaitlərinin leqallaşdırılmasını təmin ediblər. Bu məqsədlə onlar müxtəlif vətəndaşlara şirnikləndirici asan yolla pul qazanmaq vədi verərək adlarına, hətta bir adamın adına bir-neçə bank kartı açıblar. Daha sonra həmin kartlara narkotik vasitələrin onlayn yolla satışından əldə edilən pul vəsaitləri toplanıb.

Baş İdarə əməkdaşlarının müxtəlif vaxtlarda və məkanlarda həyata keçirdikləri əməliyyatlar zamanı ölkə daxilində narkotik vasitələrin satışından əldə olunan pul vəsaitlərinin toplanaraq deyilən ünvanlara çatdırılmasına rəhbərlik edən şəxslər Fərqanə Nağıyeva, onun həyat yoldaşı Adəm Nağıyev, eləcə də dəstəyə daxil olan daha 18 nəfər-Əli Ağayev, Abbas Məhərrəmov, Naib Abdullayev, Rüzgar Qəribov, Rəhim İbrahimov, Kamil Məmmədov, Əminə Yusifova, Cavid İsmayılov, Məcid Hüseynov, Orxan Cəfərov, Orxan Fərəcli, Yavər Həsənov, Elman Əliyev, Əliqulu Bayramov, Orman Səfərov, Mirsəid Əliyev, Ramiz Nağıyev və Toğrul Əbdüləzimov saxlanılıb.

Dəstə üzvlərinin ətraflarında aparılan əməliyyat-axtarış tədbirlərilə müəyyən edilib ki, onlar ölkə ərazisində müxtəlif şəxslərə aid narkotik vasitələrin satışı zamanı istifadə edilən 2 minə yaxın kart hesabı açıblar. Həmin şəxslərin yaşadıqları ünvanlara baxış zamanı qeyd edilən kartların böyük bir qismi, həmçinin narkotik vasitələrin anbar kimi saxlanıldığı paytaxt və bölgələrdəki evlərdən isə külli miqdarda heroin, metamfetamin, psixotrop tərkibli dərmanlar, elektron tərəzilər və digər maddi sübutlar aşkar edilib.



### Beynəlxalq narkomafiyanın Azərbaycandakı üzvləri belə işləyib

Araşdırma zamanı dəstə üzvlərinin narkotik vasitələrin satışı zamanı kart hesablarına toplanan pullar vasitəsi ilə internet üzərindən müxtəlif kriptovalyutalar və həmin ölkəyə idxal edilən digər məhsullar alaraq xaricdəki narkotacirlərə göndərdikləri müəyyən edilib.

Əməliyyat zamanı dəstənin xaricdə yaşayan başçılarından, yeni narkotacirlərin də bir neçəsinin şəxsiyyəti müəyyən edilib və onların saxlanılaraq yaşadıqları ölkələrdə məsuliyyətə cəlb edilmələri və ya Azərbaycana ekstradisiya olunmaları istiqamətində tədbirlər davam etdirilir.

Faktlarla bağlı Baş İdarədə Cinayət Məcəlləsinin 193-1.3.1 (mütəşəkkil dəstə halında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması), 206.4, 234.4.1, 234.4.3 və 240.3.1 (mütəşəkkil dəstə halında qaçaqmalçılıq yolu ilə narkotik vasitələri, psixotrop maddələri və güclü təsir edən maddələri əldə etmə, saxlama, daşıma, satma) maddələri ilə cinayət işi başlanılıb. Dəstə üzvlərinin hər biri barəsində Nərimanov Rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib, zəruri əməliyyat-istintaq və əməliyyat-texniki tədbirlər davam etdirilir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, son aylarda Daxili İşlər Nazirliyinin narkomaniyanın yayılmasına, narkotik ticarətinə qarşı apardığı mübarizə son dərəcə effektli olub, insanları zəhərləməklə məşğul olan yüzlərlə şəxs, qrup, yüz tonlarla narkotik maddə ələ keçirilib.

Milli genefondumuza ən ağır zərbə vuran narkotik maddələrdir. Bundan başqa, narkomaniya ölkədə kriminogen vəziyyəti ağırlaşdırır, cinayətlərin sayının artmasına gətirib çıxarır, vətəndaşların və dövlətin təhlükəsizliyinə ciddi təhdidlər yaradır. Məhz bu səbəbdən narkobiznesə qarşı belə bir mütəşəkkil və effektiv mübarizə ən böyük alqışa layiqdir.

### Daxili İşlər Nazirliyi narkomafiya ilə müharibədə qalib gəlir

Obyektivlik naminə qeyd etmək lazımdır ki, Daxili işlər naziri vəzifəsinə general-polkovnik Vilayət Eyvazov təyin olunduqdan sonra nazirliyin işində əsaslı dönüş yaranıb, vətəndaşların şikayətlərinə baxılması və müvafiq tədbir görülməsi insanlarda polisə inamı artırıb, cinayətkarlara qarşı mübarizə güclənib, rüşvət faktoru böyük ölçüdə aradan qaldırılıb. Nazirliyin qaynar xəttinə zəng edildikdə və ya onlayn müraciət edildikdə dərhal cavab verilir və müvafiq tədbirlər görülür.

Aydındır ki, ölkədə sabitliyi, təhlükəsizliyi, qayda-qanunu təmin etməkdə polislə vətəşdaşlar arasında qarşılıqlı inamın, əməkdaşlığın olması böyük rol oynayır. Nazirlik də son dövrlərdə buna çalışır. Nəticədə, polisin işində həm ciddi keyfiyyət dəyişikliyi baş verib, həm də vətəndaşlarda polisə və dövlətə inam kəskin artıb.

Bu səbəbdən narkomaniyaya, narkomafiyaya qarşı mübarizədə vətəndaşlar polisin yanındadır və bu mübarizəyə dəstək verir. Bu birlik və əməkdaşlıq ölkəmizdə cinayətkarlığın qarşısının alınması, təhlükəsizliyin təmin olunması, vətəndaşların hüquqlarının pozulmasına qarşı ciddi bir müdafiə sistemi formalaşdırıb.

Burada Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin gərgin və effektiv işini xüsusi qeyd etmək lazımdır. Bu idarənin peşəkarlığı nəticəsində Azərbaycan cinayətkar qrupların, narkomafiyanın ən az əl-qol aça bildiyi ölkələrdən birinə çevrilib. İndi idarə və ümumən nazirlik xaricdən idarə olunan bu cinayətkar əl-qolları ölkəmizdən tamamilə çəkilməyə məcbur etmək üçün böyük bir müharibəyə başlayıb.

Azərbaycan polisi həmişə olduğu kimi bu gün də vətəndaşların keşiyində, dövlətimizin arxasındadır. Vətən müharibəsində polislərimiz də mübarizə apardı və qalib gəldik. İndi isə ondan heç də geri qalmayan daha bir müharibə aparırlar, xalqımızı, gələcəyimizi narkomaniya kimi qorxulu düşməndən xilas etmək uğrunda müqəddəs bir müharibə. Bu müharibə biz də polisimizin yanında olmalıyıq, bu halda daha tez qalib gələcəyik. Tezliklə narkomaniya üzərində tam və qəti qələbənin əldə olunacağına artıq heç kimdə şübhə yoxdur.

**Elçin Bayramlı**

ANALİZ

# Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

22 sentyabr

QARABAĞ AZƏRBAYCANDIR!


## “Messi solur, artıq oyuna təsir etmir”




**Fransanın məşhur “Le Parisien” nəşri Fransa çempionatının 6-c turunda “Lion” la oyundan (2:1) sonra PSJ-nin hücumçusu Lionel Messini tənqid edib. Qol.az xəbər verir ki, nəşr argentinalı futbolçu ilə bağlı yazıb. “Onun Parisdə qalması gözləniləndən daha çətin olacaq. Messi solur. Başını aşağıya endirib, meydanın ətrafında gəzir və artıq oyuna təsir etmir”.**

Xatırladaq ki, Messi bu matç üçün start heyətdə meydana daxil olub və 76 dəqiqədə əvəzlənib. O, əvəzləndiyi üçün baş məşqçisi Maurisio Poçettinonun əlini sıxmayıb.

## Laboratoriyada kofe hazırlanacaq




**Finlandiyalı alimlər laboratoriyada bitki hüceyrələrindən kofe əldə etməyə nail olublar. Məhsulun yetişdirilməsi işləri bir bioreaktorda aparılıb. Layihə rəhbəri Heiko Risçerin sözlərinə görə, bu qərarın əsas səbəbi iqlim dəyişikliyidir.**

“Ənənəvi qəhvə istehsalı davamlı olmayan əkinçilik təcrübələri, istismar və torpaq hüquqları kimi bir çox problemlərlə qarşılaşmaqdadır. Artan tələbat və iqlim dəyişikliyi bu problemləri daha da gücləndirir”,-deyə alim izah edib.

Laboratoriyada ətin hazırlanmasında istifadə olunan texnologiyalara bənzər texnologiyalardan istifadə edilib. Qəhvə ağacının hüceyrələrinin böyüməsi üçün qida maddələri ilə dolu bir bioreaktora yerləşdirilib. Mütəxəssislərin fikrincə, belə şəraitdə bitki istehsal etmək daha asan və daha ucuz başa gələcək.

Bundan əlavə, mütəxəssislərin fikrincə, ağac hüceyrələri sərbəst böyüdüyü üçün bu cür istehsal daha geniş miqyaslıdır. Təcrübə nəticəsində elm adamları qurudulmuş və qızardılmış tək bir kütlə əldə ediblər. Tədqiqatçıların fikrincə, əldə edilən xammaldan hazırlanan içki dad və qoxuya görə eynilə qəhvəyə bənzəyir.

*Nubar Süleymanova*

## Bakcell irimiqyaslı ekoloji aksiyaya qoşulub




Bakcell şirkəti bu il də Beynəlxalq Sahilyanı Təmizlik Günü çərçivəsində Bakı çimərliklərində “Xəzəri qoruyaq” şüarı ilə keçirilmiş təmizlik aksiyasına qoşulub. Aksiyanın əsas məqsədi ölkədə ekoloji durumun yaxşılaşdırılması, əhalinin maarifləndirilməsi və ətraf mühitə məsuliyyətlə yanaşma prinsiplərini təbliğ etməkdir.

“Coca-Cola” şirkətinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, “ASAN Könüllüləri” Təşkilatının birgə təşkilatçılığı ilə keçirilmiş bu aksiyanın əsas tərəfdaşları Bakcell, PAŞA Bank, “Carlsberg Azerbaijan” və “AzEcol” şirkətləri olub. 1000 nəfərdən çox könüllünün iştirakı ilə Xəzərin Bilgəh, Pirşağı, Goradil, Novxanı və Corat çimərliklərində keçirilən aksiyada 25 hektar ərazidən ümumilikdə 6.5 ton tullantı toplanılıb.

Aksiyanı dəstəkləyən qurumlar sırasında həmçinin Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi, Azərbaycan Könüllü Təşkilatları İttifaqı, ABŞ-ın Azərbaycandakı səfirliyi, ADA universiteti, AFFA, Azərbaycan Velosiped İdmanı Federasiyası və Bakı Nəqliyyat Agentliyi yer alıb. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına müvafiq olaraq bütün iştirakçılar antiseptik vasitələrlə təmin olunub və aksiya sosial məsafənin qorunması, o cümlədən Azərbaycan Respublikasının ərazisində tətbiq edilən xüsusi karantin rejimi dövründə mövcud məhdudiyyətlər nəzərə alınaraq təşkil edilib.

Qeyd edək ki, Bakcell şirkəti artıq uzun illərdir ardıcıl olaraq bu aksiyada iştirak edir. Bu hərəkata qoşulan ilk mobil operator kimi Bakcell ölkədə ekologiya sahəsində maarifləndirmə fəaliyyətinin həyata keçirilməsinə, ətraf mühitin və əhalinin sağlamlığının qorunmasına öz töhfəsini verir.

## Həkim ən pis səhər yeməyi yeməklərinin adını çəkdi



**Qastroenteroloq Tatyana Batyuxno, səhər yeməyində yeyilməməli olan yeməklərin adını çəkib. Həkimə görə ən pis səhər yeməyi sandviçdir. Buna bəziləri buterburod da deyir. Belə ki bu yeməyin tərkibində faydalı iz elementləri yoxdur: bədəni yalnız çox miqdarda yağ və kalori ilə təmin edir. Həkim çörəyi tam taxılla əvəz etməyi və səhər saatlarında sendviçlərdən tamamilə imtina etmək, mümkün olmadıqda, isə kolbasa yerinə pendir qoymağı məsləhət görür.**

**Qeyd edək ki, rus həkim, yüksək qlükoza miqdarı səbəbiylə taxıl və dənli bitkilərdən də tədricən imtinanı məsləhət bilir: “Əvvəlcə doyurur, güc artımını stimullaşdırır, amma tezliklə aclıq yaradır”.**

*Nazlı*

## “Saxta insanlardan uzaq durmağa qərar verdim”



Məşhur türk müğənni Serdar Ortaçın keçmiş sevgilisi Seçil Gür, saf qəlbinin çörəyini yediyini söyləyib. SİA xarici mətbuata istinadən xəbər verir ki, popçu, “Doldurulma ilə nəfəs almıram. Başqalarının sözünə qulaq asmıram “deyib. Sonra əlavə etdi: “Ətrafımdakı səmimiyyətsiz, qısqanc, hiyləgər və vicdansız insanlardan uzaq durmağa qərar verdim”.

*Ayşən Vəli*


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**



**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**



Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.



**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**